11 sentyabr 2001-ci il terror hücumlarından sonra Amerikanın strateji planlaşdırmasında dəyişikliklər baş verdi. Terrorizm beynəlxalq aləmdə silahlı münaqişənin əsas formalarından birinə çevrildi. Bu baxımdan ABŞ-ın yeni strategiyasına görə, terrorla mübarizə bu dövlətin əsas məqsədlərindən biri olmuşdur. ABŞ terrorizmə qarşı müharibəyə rəhbərlik edir və dünyanın bir neçə ölkəsini, əsasən də Yaxın Şərq regionunu terrorçuları himayə edən dövlətlər siyahısına daxil etmişdir. Terrorizmi (xüsusən də İraqda) aradan qaldırmaq üçün ABŞ-da yeni strategiya yaradıldı ki, bu da dünya xəritəsinin Amerikanın maraqlarına uyğun şəkildə yenidən qurulmasına yönəlmişdi. ABŞ prezidenti Corc Buş İraqı İran və Şimali Koreya ilə birlikdə üç tərəfdən biri kimi göstərərək "şər oxu" ifadəsini işlətmişdir ki, bu da onun siyasi, geostrateji və iqtisadi məqsədlərinə xidmət etməli idi. Çünki ABŞ İraq müharibəsindən sonra iqtisadi amillərin roluna diqqət yetirirdi. Maraqlı fakt ondan ibarətdir ki, 2003-cü ildə Amerikanın İraqı işğalı zamanı əsas məqsədləri terrorizmlə mübarizə, eləcə də kütləvi qırğın silahlarının məhv edilməsi olmasına baxmayaraq, işğal zamanı neft sənayesi obyektlərini bombardmanlardan mühafizə etmişdi. Hətta neft quyularında baş vermiş yanğının söndürülməsi üçün bütün mümkün tədbirlər görülmüşdür [20].

Bu cür təfərrüatlar Amerikanın İraqı işğalının əsl səbəbini təsdiqləyirdi. Xatırladaq ki, 2003-cü ildə Birləşmiş Ştatlar İraqın daha yaxşı idarəçilik sistemi ilə əvəz olunacağı və işğal olunmuş enerji yataqlarının ABŞ-ın enerjisinin sabitliyinə təsir göstərəcəyi ümidi ilə Səudiyyə Ərəbistanındakı bazalarından qoşunlarını çıxarmışdı. Birləşmiş Ştatlar İraq neftinin dünyaya tam açılmasını, özəl sektorun inkişafı üçün güclü və cəlbedici stimulların yaradılmasını, iqtisadi inteqrasiyanın əldə edilməsini ehtiva edən strategiya tətbiq etməyə çalışırdı. Bir çox mütəxəssislər tərəfindən ABŞ-ın İraqın yenidən qurulması proqramı İkinci Dünya Müharibəsindən sonra Avropanı yenidən qurmağı öhdəsinə götürən Marşal Layihəsindən sonra dünyanın ən böyük yenidənqurma layihəsi kimi təsvir edilmişdir [8].

11 sentyabr 2001-ci il hadisələri Birləşmiş Ştatların ümumi davranışında keyfiyyət dəyişikliyini əks etdirirdi. Belə ki, 2001-ci ildən sonrakı dövr Buş administrasiyası dövlətin xarici siyasətinin ümumi tendensiyalarında əsaslı dəyişikliklərə əhəmiyyətli təsir göstərmişdir. ABŞ administrasiyası İraqla müharibənin başlanmasına səbəb olan çoxlu sayda saxta arqumentlər, o cümlədən bu dövləti terror əlaqələri, habelə 11 sentyabr hadisələrində iştirak və kütləvi qırğın silahlarına malik olmaqda ittiham edirdi. Amma əslində İraqa qarşı müharibə "neft müharibəsi" idi. Çünki İraq, Birləşmiş Ştatların Səudiyyə Ərəbistanından sonra ikinci ən böyük neft ehtiyatlarının açarına sahibdir. ABŞ-ın Asiyada faktiki olaraq hər bir əsas ticarət tərəfdaşı Fars körfəzindən neftin davamlı axınından asılıdır. Bu da o deməkdir ki, dünyanın hər yerində inkişaf etməkdə olan dövlətlər Fars körfəzinin neft limanlarından və xüsusən də İraqdan asılıdır. Ona görə də ABŞ İraqda mövcud olmalı və regiondakı vəziyyətə nəzarəti davam etdirmək niyyətidə idi [19]. Bununla yanaşı, digər beynəlxalq aktyorların, xüsusən də Rusiya və Çinin İraqda mövcudluğunun qarşısını almaq Vaşinqton üçün vacib şərt olmuşdur. Beləliklə, ABŞ-ın siyasi rəsmiləri İraqın işğalının ölkənin neft sərvətlərinin istehsalında hakim olmaqla regiona nəzarət etmək imkanı verən həll yolu olduğu qənaətinə gəlmişdilər [12].

Qeyd olunduğu kimi dünya nəzarətinin əsas "alətlərindən" biri olan neft Amerika qüvvələrinin İraqı işğal etməsində mühüm amil olmuşdur. İraqdakı qələbə həm də ABŞ administrasiyasına "qlobal

fəthlərə", eləcə də bu dövlətdə birbaşa hökmranlığa nail olmağa imkan verirdi [5]. Çünki neft Amerikanın xarici siyasətinin ən mühüm siyasi məqsədidir və buna görə də Körfəz müharibəsindən sonra İraq müharibəsinin olması aydın məsələ idi [17]. Bu yöndə Britaniyalı jurnalist Robert Fiskin fikri ilə razılaşmamaq çətindir: "Birləşmiş Ştatlar qlobal neft mənbələrinə nəzarət etməli olacaq... Əgər İraq neftin 25%-nə nəzarət etmək əvəzinə, çuğundur ixrac etsəydi, Birləşmiş Ştatlar İraqı işğal etməzdi" [14].

Təqdim olunan bütün faktlara əsaslanaraq, araşdırmanın nəticəsi olaraq aşağıdakılar əldə edilmişdir: ABŞ-nın İraqda geostrateji, iqtisadi və siyasi maraqlarını həyata keçirməklə yanaşı, əsas məqsədi neftdir. Məhz bu fakt ABŞ-da yeni strategiyanın hazırlanmasına səbəb oldu və Yaxın Şərq layihəsinin həyata keçirilməsi baxımından İraqın Amerika maraqlarına xidmət etməsinin vacibliyini aydınlaşdırmışdı. Lakin unutmaq olmaz ki, İraqda hökmranlıq həm də ABŞ-a İranı nəzarətdə saxlamağa və bu dövlətin öhdəsindən gələ biləcəyi istənilən çağırışa cavab verməyə hazır olmağa imkan verirdi. Həmçinin belə qənaətə gəlmək olar ki, ABŞ hər hansı beynəlxalq aktyorun İraqın enerji resurslarında maraqlı olduğunu hiss etsə, o zaman Vaşinqton silahlı qüvvələrdən istifadə etməyə hazır olacaqdır. Yəni nefti regionda təhlükəsizliyin sabitliyini pozan əsas səbəblərdən biri adlandırmaq mümkündür. Bundan əlavə, İraqın işğalı ABŞ-a Yaxın Şərqin qəlbində yer almağa və oradan öz hegemonluğunu Körfəz ölkələrinə, eləcə də regionda Amerika hərbi bazalarının olmasını təmin etməyə imkan verirdi. Həm də ABŞ-ın təhlükəsizliyinə və ya regionun təhlükəsizliyinə təsir edən hər hansı bir fövqəladə hadisə baş verərsə, onun bu yerlərə yaxın olmasına və belə bir vəziyyətə tez reaksiya verməsinə imkan verəcəkdi.

Əslində İraq xalqını Səddam rejimdən xilas etmək və ya ərəb dünyası ilə İsrail arasında balans yaratmaq üçün ABŞ-nın İraq müharibəsinə ehtiyacı yox idi. ABŞ rəhbərliyinin əsas məqsədi İraq neftinə nəzarəti ələ keçirmək idi ki, bu da Vaşinqtonu beynəlxalq sistemin zirvəsinə qaldırmağa və prezident Corc Buşun strategiyasının ortaya çıxmasından sonra beynəlxalq münasibətlərin birqütblü sistemi ideyasını dəstəkləməyə imkan verməli idi. Yeni strategiyanın ortaya çıxması ABŞ üçün müsbət nəticələr verdi. ABŞ İraqın işğalı ilə öz məqsədlərinə nail ola bildi ki, bu da öz bəyanatlarına görə terrorizmlə mübarizədə zəruri addım idi. Lakin təqdim olunan faktlara əsasən belə nəticəyə gəlmək olar ki, İraq dünya hegemonlarının rəqabətində növbəti siyasi qurbana çevrildi.

ƏDƏBIYYAT

1. Aboud, A, 2014. American strategy for the Iraqi development. – Available at: http://www.ahewar.org/debat/show.art.asp?aid=420136&r. [27.09.2024].
2. A country that is rich and a people that can't find food. What do you know about Iraqi oil. 2019. Available at: http://khaleej.online/Gbz4Mn [27.09.2024].
3. Абиди, Х.Л. Иракская нефть и нефтяная политика в Ираке и в регионе в свете американской оккупации: в 3 т. / Х.Л.аз-Забиди. – Багдад: Иракский центр исследований, 2007. – Т.1. – 366 с.
4. Al-shamhi Rahman, 2018. American ambitions for the Iraqi and Syrian oil threaten the organization of OPEC. Available at: http://tishreen.news.sy/?p=21359 [27.09.2024].
5. Al-Falah Abdul-Khaliq. 2019. «Iraq to where ... civilised dialogue has moved». http://www.ahewar.org/debat/show.art.asp?aid=657203 [27.09.2024].
6. Айдрус, И.А. Меланьина М.В. Экономические санкции в условиях глобализации: проблемы теории и современная практика Ирака // Азия: вектор развития внешнеэкономического сотрудничества с Россией в условиях санкций. Ежегодник – 2016. Под редакцией Л.В. Шкваря. Москва, 2016.
7. Багдасаров, С.А. Ближний Восток. Вечный конфликт. М.: Эксмо, 2016.
8. Ван-Вактор, С.А. Нефть благословенная и проклинаемая. Международный нефтегазовый бизнес от скважины до бензоколонки / С.А. Ван-Вактор. – М.: Альпина Паблишер, 2014
9. Chatelus, M. Iraq and Its Oil: Sixty-five Years of Ambitions and Frustration // Iraq: Power and Society / ed. by D. Hopwood. – Oxford: St. Antony's College, 1993. – P. 141–161.
10. Haled al-Ardawi, 2019. Iraq and the United States of America, study the future foreign policy of Iraq. https://abu.edu.iq/sites/default/files/jurnals/abu/3/3-13.pdf [27.09.2024].

11. Heba Burhan al-Azzawi. 2014. The events of September 11, 2001 and its impact on international politics. http://www.ahewar.org/debat/show.art.asp?aid=408271 [27.09.2024].
12. Hamisa, O. 2015. Oil research in the US-Arab relations on the example of Algeria (1990–2014). http://www.ahewar.org/debat/show.art.asp?aid=657203 [27.09.2024].
13. Ергин Д. Всемирная история борьбы за нефть, деньги и власть. – М.: Альпина Паблишер, 2016.
14. Makarim, I. 2010. Is oil the cause of America's war with Iraq? http://www.ahewar.org/debat/show.art.asp?aid=224067 [27.09.2024].
15. Mejcher H. Die Politic und das Ol im Nahen Osten. Bd. I. Der Kampf der Machte und Konzerne vor dem Zweiten Weltkrieg. – Stuttgart: Klett-Cotta, 1980.
16. Salema, A. 2010. America has succeeded in achieving its goals of occupying Iraq. http://khaleej.online/Gbz4Mn [27.09.2024].
17. Saleh, l. 2014. American policy in Iraq: divide and conquer. http://www.alriyadh.com/19560
18. Сушенцов, А.А. Эволюция политических приоритетов США в Ираке / А.А. Сушенцов // США – Канада. Экономика, политика, культура. – 2010. – № 7. – С. 53–66.
19. Шумилин, А. И. Проблема нефти и перспектива вывода американских войск изИрака / А.И.Шумилин // США– Канада. Экономика, политика, культура. – С. 37–54.
20. Thomas, P.M. Barnet. America's Post-Oil Grand Strategy, 18 February 2016. http://thomaspmbarnett. squarespace.com/globlo gization/2016/2/18/americas-post-oil-grand-strategy.html [27.09.2024].

АЙТЕН КАРИМЛИ
Бакинский Государственный Университет,
Кафедра истории стран Европы и Америки

РОЛЬ ИРАКСКОЙ НЕФТИ В СТРАТЕГИИ США

В статье рассматривается ретроспективно историческое значение нефтяного вопроса в пребывании американских военных в Ираке. Автор приходит к выводу, что оккупация Ирака США была в значительной степени направлена на контроль над разработкой обильных нефтяных ресурсов Ирака, а не на борьбу с терроризмом, после тщательного изучения геостратегических, экономических и политических интересов США в районе Персидского залива, особенно в Ираке. Помимо возможности контролировать цену на нефть на этом мировом рынке, в интересах Соединенных Штатов было не допустить доминирования других иностранных игроков в этом районе и избежать соперничества в борьбе за энергетические ресурсы. Выяснение того, как иракская нефть вписывается в американскую политику, и анализ того, как энергетические ресурсы стали главной проблемой в оккупации Ирака, являются важными темами исследований для Ближнего Востока.

Ключевые слова: Ирак, США, Ближний Восток, оккупация, нефть, терроризм, стратегия.

AYTAN KARIMLI
Baku State University,
Department of History of European and American Countries

THE ROLE OF IRAQI OIL IN US STRATEGY

The article examines, in retrospect, the historical significance of the oil issue in the US military's stay in Iraq. The author comes to the conclusion that the US occupation of Iraq was largely intended to control the development of Iraq's abundant petroleum resources, rather than to combat terrorism, after carefully examining the geostrategic, economic, and political interests of the US in the Persian Gulf area, particularly in Iraq. In addition to allowing it to control the price of oil on this

global market, it was in the interests of the United States to prevent other foreign players from dominating the area and to avoid rivalry in the fight for energy resources. Finding out how Iraqi oil fit into American policy and analyzing how energy resources became a major issue in the occupation of Iraq are important research topics for the Middle East.

Keywords: Iraq, USA, Middle East, occupation, oil, terrorism, strategy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Aida Bağırova, t.ü.f.d. Məmmədağa Baxışov.

UOT 32:93/94; UOT 070; UOT 94(479.24)

ЛЕЙЛА МУРАДЗАДЕ
заочный докторант
Бакинского государственного университета
ведущий журналист Азербайджанского государственного информационного агентства (АЗЕРТАДЖ)
leilamuradofff@gmail.com

ОТНОШЕНИЕ ЮНЕСКО К КУЛЬТУРНОМУ НАСЛЕДИЮ В КАРАБАХЕ: ПОЛИТИКА ДВОЙНЫХ СТАНДАРТОВ

DOI: https://doi.org/10.36719/2708-065X/107/182-187

В данной статье анализируется подход к восстановлению материального и культурного наследия в послевоенный период. Важно отметить, что защита культурного наследия особенно актуальна в зонах конфликтов, где исторические памятники и артефакты подвергаются разрушению и разграблению. В статье анализируется использование ЮНЕСКО двойных стандартов по отношению к Азербайджану, что создает неприемлемое неравенство и несправедливость в сфере охраны культурного наследия. Кратко обсуждаются конкретные примеры использования этой политики при защите и оценке ущерба, нанесенного материальному и культурному наследию Карабахского региона Азербайджана в период оккупации Арменией. Делается вывод, что реализация данной политики может оказать пагубное влияние на международное взаимодействие.

Ключевые слова: Азербайджан, ЮНЕСКО, послевоенный период, восстановление материального и культурного наследия, двойные стандарты.

Введение. Восстановление достоверной истории и культуры особенно важно для сохранения национальной и культурной идентичности, а также для образования и воспитания молодого поколения. Историческое и культурное наследие позволяет понять корни исторических событий, а также ценности и традиции общества. Это также способствует сохранению уникальности и характера каждой нации.

Однако, использование этой информации для идеологической обработки может быть опасным и привести к искажению исторических фактов, а также к манипуляции общественным сознанием. Это может привести к возникновению конфликтов и дезинформации, а также использованию истории в политических целях.

Одним из важных аспектов отношения к объектам историко-культурного наследия является их сохранение и защита. Многосторонние усилия направлены на реставрацию и консервацию памятников истории и культуры, чтобы сохранить их для будущих поколений. Важно уважать и ценить историческое наследие, так как оно способно объединить людей и сохранить историческую память. Восстановление и сохранение памятников истории и культуры является важным элементом сохранения культурного многообразия и достоинства человечества.

Восстановление после конфликтов – это комплексный и многогранный процесс, направленный на заживление ран, нанесенных войной или другим видом насилия, и на создание устойчивого мира и процветания. Для того чтобы, определить важные компоненты постконфликтного восстановления нами в схеме рассмотрены основные моменты (Схема 1).

Как видно из схемы, данный процесс требует значительных усилий и ресурсов. Соответственно здесь важную роль играет международное сообщество. Как известно, для предотвращения разрушения материально-культурного наследия человечества в 1954 году была принята Гаагская конвенция о защите культурных ценностей в случае вооруженного конфликта, которая определяет меры по охране движимых и недвижимых культурных объектов. Данный документ стал одним из первых международных соглашений, посвященных защите культурного

наследия в условиях вооруженных конфликтов. Важно отметить, что Гаагская конвенция 1954 года была дополнена двумя протоколами. Первый Протокол, принятый 14 мая 1954 года, вступил в силу 7 августа 1956 года. Второй Протокол был подписан 26 марта 1999 года, а вступил в силу 9 марта 2004 года. Данные протоколы расширяют круг объектов культурного наследия, подлежащих защите, и ужесточают меры ответственности за их нарушение [1].



Схема 1. Ключевые элементы восстановления после конфликтов

В последние десятилетия общество стало свидетелем беспрецедентного по масштабам разрушения культурного наследия в зонах военных конфликтов. К сожалению, на территории Азербайджана, в частности в Карабахе, варварски разрушены и безвозвратно утрачены многочисленные памятники истории и культуры. Уничтожение истории азербайджанского народа выступает систематической и целенаправленной политикой Армении. После Победы во Второй Карабахской войне (27 сентября - 10 ноября 2020 года) Азербайджан начал постепенно восстанавливать деоккупированные территории. Заметим, что восстановление представляет собой многогранную и трудоемкую задачу, требующую значительных ресурсов и времени. Азербайджан неоднократно предоставлял большинству международных организаций доказательства разрушений исторического и культурного наследия освобожденных территорий. Для оценки разрушений Азербайджан направлял запросы в ЮНЕСКО для отправки независимой технической миссии организации. Однако в ЮНЕСКО отметили, что на освобожденных от оккупации территориях будет осмотрено лишь только два памятника, а после этого сразу отправятся в Ханкенди. Азербайджанская сторона назвала визит миссии ЮНЕСКО в регион на таких условиях неискренним и непрозрачным [2]. Также следует отметить, что Община Западного Азербайджана неоднократно обращалась в ЮНЕСКО с просьбой направить в Армению миссию для мониторинга состояния азербайджанских памятников в Армении [3]. Но и данный запрос был отклонен. Что же мешает организации направить миссию в Карабах и оценить масштабы разрушений?

В основные задачи деятельности ЮНЕСКО в области восстановления культурного наследия включаются следующие виды поддержки пострадавшей стороне (в случае вооруженных конфликтов, природных катаклизмов и др.):

1. ***Предоставление технической помощи:*** ЮНЕСКО оказывает экспертную помощь государствам в разработке планов восстановления и реставрации культурных объектов, а также направляет специалистов для проведения работ по восстановлению.
2. ***Финансирование:*** ЮНЕСКО предоставляет гранты и другую финансовую помощь странам для реализации проектов по восстановлению культурного наследия.
3. ***Повышение осведомленности:*** ЮНЕСКО проводит информационно-просветительские кампании, направленные на повышение осведомленности о важности сохранения культурного наследия и мобилизации поддержки для его восстановления.
4. ***Содействие международному сотрудничеству:*** ЮНЕСКО координирует усилия различных стран и организаций в области восстановления культурного наследия и содействует обмену опытом и передовыми практиками [4].

Вышеуказанные данные позволяют утверждать, что ЮНЕСКО не оказывает ни одного из видов помощи пострадавшей стороне, в данном случае Азербайджанской Республике, что является ярким примером политики двойного стандарта.

Существенно то, что организация активно участвует в восстановлении культурного наследия многих стран, а также реализует множество проектов по восстановлению их культурного наследия. Рассмотрим конкретные примеры:

- ***Восстановление старого города Варшавы*** после разрушения в ходе Второй мировой войны
- ***Реконструкция Храмового комплекса Ангкор-Ват***, поврежденного в результате войн и стихийных бедствий
- ***Восстановление города Дубровник*** после его обстрела во время войны в Хорватии (1991-1995)
- ***Восстановление мавзолеев в Тимбукту*** (Мали)
- ***Документирование разрушений в Сирии***, защита древнего ***города Пальмиры***
- ***Восстановление минаретов Джам*** в Афганистане
- ***Защита исторического города Санаа*** в Йемене
- ***Восстановление храмов в долине Катманду*** в Непале [5]

Основной из задач ЮНЕСКО является оказание помощи пострадавшим от военных конфликтов территорий, но касаясь Азербайджанской Республики, организация не стремится отправлять миссии в Карабах, а также в Иревань, что приводит к различным умозаключениям по поводу решения данного вопроса. Отсюда следует то, что действия глобальной международной политики могут оказывать влияние на решения, принимаемые организацией, в данном случае выборочное оказание помощи государствам, пострадавшим от военных конфликтов. В ходе исследования данного вопроса нами рассмотрен 2 пункт статьи I Устава ЮНЕСКО, где говорится о том, что «в задачи ЮНЕСКО входит сохранение, распространение и сохранение знаний, включая книги, произведения искусства и памятники истории и научного наследия человечества. Кроме того, организация рекомендует заинтересованным государствам заключить соответствующие международные конвенции» [6].

Принимая во внимание пункт данного Устава, в начале 2023 года Западная община Азербайджана направило письмо генеральному директору ЮНЕСКО Одре Азуле, где были отмечены систематические нарушения в отношении культурного наследия азербайджанцев. Рассмотрим выдержки из письма:

- **Присвоение и искажение:** Голубая мечеть в Иреване (ЛМ – построена в 1766 году по приказу Иреванского хана Гусейнали хана), будучи единственной сохранившейся мечетью в Армении, ложно выдается за "персидскую мечеть". Однако исторические факты свидетельствуют, что она была построена азербайджанцами, которые в то время составляли большинство населения города, и на протяжении веков служила им местом поклонения.
- **Уничтожение:** Руководство Армении продолжает планомерно уничтожать последние следы азербайджанской культуры на своей территории. Ярким примером служит квартал Тепебаши в Иреване - единственный сохранившийся фрагмент исторического центра го-

рода, хранящий его самобытность с XVII века. Некогда населенный азербайджанцами квартал Тепебаши находится под угрозой полного исчезновения из-за планов армянских властей по его сносу.

- **Дискриминация и этнические чистки:** Политика Армении в отношении азербайджанцев нанесла непоправимый ущерб нематериальному культурному наследию Азербайджана. Этническая чистка, проведенная в Гёйчинском махале, стала трагедией для ашугской школы Гейчи - колыбели азербайджанского ашугского искусства, включенного в Репрезентативный список нематериального культурного наследия человечества ЮНЕСКО. Власти Армении даже демонстративно разрушили памятник и могилу видного ашуга Алескера, уроженца Гейчи [7].

В сентябре 2023 года организация направила ответное письмо Западной общине Азербайджана, подтвердив свою готовность предпринять необходимые меры в соответствии с призывом общины к защите культурного наследия [8]. Следует выделить, что в рамках расширения своих возможностей по защите азербайджанского культурного наследия в Армении, община продолжит сотрудничество с ЮНЕСКО. Это сотрудничество будет включать ведение реестра памятников культуры с использованием современных методологий, оценку их состояния и определение необходимых мер для их восстановления.

Как известно, мины и другие взрывные устройства, запрещенные международным гуманитарным правом, представляют собой серьезную угрозу для культурного наследия как во время вооруженных конфликтов, так и в постконфликтный период. В целях защиты культурного наследия от мин в конце 2023 года Азербайджан выдвинул ЮНЕСКО резолюцию на тему «Воздействие мин на культурное наследие», принятой на 15-й встрече сторон Гаагской конвенции 1954 года о защите культурных ценностей в случае вооруженного конфликта. В данной резолюции поддерживаются усилия, предпринимаемые государствами-членами, направленные на защиту и сохранение культурного имущества (культурного наследия) в периоды вооруженных конфликтов и после них. Одновременно в ней отмечается, что использование мин и других взрывных устройств может привести к значительному ущербу такому имуществу, что является грубым нарушением норм международного гуманитарного права [9]. Важно отметить, что данная резолюция стала первой в истории ЮНЕСКО, единогласно принятой после обсуждения, и посвященной влиянию мин на культурное наследие. Примечательно, что именно Азербайджан впервые в истории данной Конвенции инициировал включение пункта аналогичного содержания в повестку дня.

Вопрос восстановления и направления миссии в Азербайджан поднимался и на 3-м Глобальном форуме ЮНЕСКО по борьбе с расизмом и дискриминацией, который проходил с 29 ноября по 1 декабря 2023 года в Сан-Паулу (Бразилия), председателем Женского совета Общины Западного Азербайджана, депутатом Милли Меджлиса Азербайджанской Республики Малахат Ибрагимгызы. Она представила подробную информацию об уничтожении азербайджанского культурного наследия в Армении и вновь озвучила призыв общины к этой международной организации направить миссию в Армению для проведения всесторонней оценки состояния азербайджанского культурного наследия на территории этой страны [10]. Все сказанное дает полагать, что ЮНЕСКО своими действиями показывает свою незаинтересованность в поддержке, а также оценке ущерба, нанесенного армянской стороной материально-культурному наследию Азербайджана.

Сущность вышеизложенного сводится к тому, что существует проблема двойных стандартов:

1. Некоторые объекты культурного наследия получают приоритетное внимание и финансирование, в то время как другие остаются вне защиты.
2. Критерии отбора объектов для восстановления часто непрозрачны и субъективны.
3. Политические и идеологические факторы могут играть значительную роль в принятии решений о восстановлении.

Вышеперечисленные проблемы приводят к тому, что некоторые национальные культуры и истории маргинализируются, культурное наследие становится инструментом политической пропаганды, универсальные ценности защиты культурного наследия подрываются.

Заключение. Исходя из этого, мы делаем вывод, что для решение данной проблемы необходимо разработать более справедливые и прозрачные критерии отбора объектов для восстановления, обеспечить более широкое участие в процессе принятия решений, повысить осведомленность о проблеме двойных стандартов, а также укреплять международное сотрудничество в области защиты культурного наследия. Безусловно, не существует простых решений, и всегда будут существовать разногласия по поводу того, как восстанавливать объекты культурного наследия. Тем не менее, важно стремиться к созданию более справедливого и инклюзивного подхода к восстановлению, который будет уважать все культуры и истории.

ЛИТЕРАТУРА

1. Защита культурных ценностей. Военный справочник; 2020 - https://unesdoc.unesco.org/ark:/48223/pf0000372542/PDF/372542rus.pdf.multi [25.06.2024].
2. Nagorno-Karabakh: Reaffirming the obligation to protect cultural goods, UNESCO proposes sending a mission to the field to all parties; 2023 -https://www.unesco.org/en/articles/nagorno-karabakh-reaffirming-obligation-protect-cultural-goods-unesco-proposes-sending-mission-field?hub=415 [25.06.2024].
3. Qərbi Azərbaycan İcması UNESCO-nun Baş direktoru Odri Azuleyə məktub ünvanlayıb; 2023 https://azertag.az/xeber/qerbi_azerbaycan_icmasi_unesco_nun_bas_direktoru_odri_azuleye_mektub_unvanlayib-2545073 [25.06.2024].
4. Convention Concerning the Protection of the World Cultural and Natural Heritage - https://whc.unesco.org/en/conventiontext/ [25.06.2024].
5. Post-Conflict and Post-Disaster Reconstruction and Recovery - https://whc.unesco.org/en/reconstruction/ [25.06.2024].
6. Декларация ЮНЕСКО, касающаяся преднамеренного разрушения культурного наследия; 2003 - https://www.un.org/ru/documents/decl_conv/declarations/heritage_destruction.shtml [25.06.2024].
7. Правительство Армении уничтожило памятник Ашугу Алескеру – Община Западного Азербайджана; 2023 - https://www.kaspiy.az/pravitelstvo-armenii-unichtozhilo-pamyatnik-ashugu-aleskeru-obshina-zapadnogo-azerbajdzhana [25.06.2024].
8. ЮНЕСКО дала положительный ответ на призыв Общины Западного Азербайджана; 2023 - https://azertag.az/ru/xeber/yunesko_dala_polozhitelnyi_otvet_na_prizyv_obshchiny_zapadnogo_azerbaidzhana-2745772 [25.06.2024].
9. UNESCO-da Azərbaycanın minalarla bağlı irəli sürdüyü qətnamə qəbul edilib; 2023 - https://report.az/xarici-siyaset/yunesko-da-azerbaycan-terefinden-ireli-surulmus-qetname-qebul-edilib/ [25.06.2024].
10. На форуме ЮНЕСКО рассказано об уничтожении азербайджанского культурного наследия в Армении; 2023 - https://azertag.az/ru/xeber/na_forume_yunesko_rasskazano_ob_unichtozhenii_azerbaidzhanskogo_kulturnogo_naslediya_v_armenii-2839163 [25.06.2024].

LEYLA MURADZADƏ
Bakı Dövlət Universitetinin qiyabi doktorantı
Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) aparıcı jurnalisti

UNESCO-NUN QARABAĞDAKI MƏDƏNİ İRSƏ MÜNASİBƏTİ: İKİLİ STANDARTLAR SİYASƏTİ

Məqalədə müharibədən sonrakı dövrdə maddi-mədəni irsin bərpasına yanaşma təhlil olunub. Qeyd etmək vacibdir ki, mədəni irsin mühafizəsi xüsusilə münaqişə zonalarında, tarixi abidələrin və artefaktların dağıdılması və talan olunduğu ərazilərdə aktualdır. Məqalədə UNESCO tərəfindən Azərbaycana münasibətdə mədəni irsin qorunmasında yolverilməz bərabərsizlik və ədalətsizlik yaradan

ikili standartların tətbiqi təhlil edilib. Ermənistanın işğalı dövründə Azərbaycanın Qarabağ bölgəsinin maddi-mədəni irsinə dəymiş ziyanın qiymətləndirilməsində bu siyasətdən istifadə edilməsinə dair konkret nümunələr qısa şəkildə verilib. Belə qənaətə gəlinir ki, bu siyasətin həyata keçirilməsi beynəlxalq qarşılıqlı fəaliyyətə zərərli təsir göstərə bilər.

Açar sözlər: Azərbaycan, UNESCO, postmüharibə dövrü, maddi-mədəni irsin bərpası, ikili standartlar.

LEYLA MURADZADE
correspondence doctoral student at Baku State University
leading journalist at the Azerbaijan State News Agency (AZERTAC)

UNESCO'S ATTITUDE TO CULTURAL HERITAGE IN KARABAKH: THE POLICY OF DOUBLE STANDARDS

This article analysed the approach to the restoration of material and cultural heritage in the post-war period. It is important to note that the protection of cultural heritage is particularly relevant in conflict zones where historical monuments and artefacts are subject to destruction and looting. The article analyses UNESCO's use of double standards in relation to Azerbaijan, which creates unacceptable inequalities and injustices in the protection of cultural heritage. Specific examples of the use of this policy in protecting and assessing the damage caused to the material and cultural heritage of the Karabakh region of Azerbaijan during the period of occupation by Armenia are briefly discussed. It is concluded that the implementation of this policy may have a detrimental effect on international interaction.

Keywords: Azerbaijan, UNESCO, post-war period, restoration of material and cultural heritage, double standards.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 iyun 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: s.e.d. Sabir Məmmədli, t.e.d. Qabil Əliyev.

UOT 32:93/94; UOT 327; 930.22

ƏSGƏR ƏSGƏROV
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının doktorantı
askeraskerovv222@gmail.com

GEOSİYASİ TƏDQİQATLAR: NƏZƏRİ ÜMUMİLƏŞDİRMƏ

DOI: https://doi.org/10.36719/2708-065X/107/188-193

Geosiyasət qlobal güc münasibətlərinə dair geniş spektrli nəzəriyyə və perspektivləri əhatə edən mürəkkəb və dinamik tədqiqat sahəsidir. Bu baxımdan, realizm və liberalizm qlobal siyasətin formalaşmasında müvafiq olaraq hərbi gücün və iqtisadi amillərin əhəmiyyətini vurğulayan geosiyasətdə ən təsirli iki nəzəriyyədir. Hartland və Rimland nəzəriyyələri qlobal güc münasibətlərində coğrafi regionların strateji əhəmiyyətinə dair mühüm perspektivlərdir, neorealizm və neoliberalizm isə qlobal güc münasibətlərinin formalaşmasında institutların və qeyri-dövlət aktorlarının rolu haqqında daha nüanslı perspektivlər təqdim edir. Post-kolonializm qlobal siyasətdə üstünlük təşkil edən Qərb perspektivinə meydan oxuyan və qlobal güc münasibətlərinin formalaşmasında müstəmləkəçilik və imperializmin davam edən irsini vurğulayan yeni bir perspektivdir. Fərqlərinə baxmayaraq, bu nəzəriyyələr və perspektivlər qlobal güc münasibətlərinin mürəkkəb və dinamik təbiətini dərk etməyimizə kömək edir və qlobal münaqişələrin idarə edilməsi, bütün dünyada sülh və rifahın təşviqi üçün siyasət və strategiyaların inkişafına təsir göstərib. Məqalədə bütün bu nəzəriyyələr detallı şəkildə təhlil edilir və ümumiləşdirmələr aparılır.

Açar sözlər: Liberalizm, neoliberalizm, neorealizm, nəzəriyyə, post-kolonializm, realizm.

Giriş. Geosiyasət coğrafiya, güc və siyasət arasındakı əlaqəni anlamağa çalışan bir tədqiqat sahəsidir. Bu sahə torpaq, su və təbii sərvətlər kimi coğrafi xüsusiyyətlərin siyasi qərarları formalaşdırmaq və beynəlxalq münasibətlərə təsir yollarını araşdırır. Geosiyasi tədqiqatlar siyasi sərhədlərin siyasi kimliyə və milli təhlükəsizliyə təsirindən tutmuş, geosiyasi dinamikanın formalaşmasında texnologiya və qloballaşmanın roluna qədər geniş mövzuları əhatə edə bilər. Geosiyasətin tədqiqi çox vaxt *realpolitika* ilə əlaqələndirilir ki, bu da ideoloji və ya mənəvi narahatlıqlardan daha çox güc və milli maraqların praktiki mülahizələrini vurğulayır [1]. Geosiyasi tədqiqatlar coğrafiya, politologiya, beynəlxalq münasibətlər, tarix, iqtisadiyyat və ətraf mühitin öyrənilməsi də daxil olmaqla bir sıra elmi tədqiqat sahələrindən ibarətdir. Geosiyasi təhlil regional münaqişələr, qlobal iqtisadi tendensiyalar və ekoloji böhranlar kimi müxtəlif kontekstlərdə tətbiq oluna bilər.

Müasir geosiyasi tədqiqatlar bir sıra intellektual ənənələrdən və tarixi kontekstlərdən inkişaf edir. Müasir geosiyasi tədqiqatlara əsas təsirlərdən bəziləri bunlardır [2]:

Klassik geosiyasi fikir: Geosiyasətin öyrənilməsi öz köklərini 20-ci əsrin əvvəllərində Halford Makkinder və Alfred Mehen kimi alimlərin işi ilə götürür.

Qloballaşma və texnoloji dəyişiklik: 20-ci əsrin sonu və 21-ci əsrin əvvəlləri sürətli qloballaşma və texnoloji dəyişikliklərlə səciyyələnir.

Ekoloji narahatlıqlar: İqlim dəyişikliyi və resursların tükənməsi kimi ekoloji narahatlıqlar getdikcə geosiyasi dinamikanı formalaşdırır.

Tənqidi və postkolonial yanaşmalar: Geosiyasi təhlilə tənqidi və postkolonial yanaşmaların əhəmiyyəti getdikcə artmaqdadır.

1. Ənənəvi geosiyasət nəzəriyyələri.

1.1. Realizm

Realizm geosiyasi tədqiqatlarda tez-tez müraciət edilən beynəlxalq münasibətlər nəzəriyyəsidir. Realizm beynəlxalq münasibətlərin formalaşmasında gücün və milli marağın vacibliyini vurğulayır və beynəlxalq sistemin anarxiya ilə xarakterizə olunduğunu, dövlətlərin güc və təhlükəsizlik uğrunda daimi rəqabət vəziyyətində olduğunu müdafiə edir. Geosiyasət kontekstində realist nəzəriyyə dövlətlər arasında güc münasibətlərinin formalaşmasında coğrafiyanın və təbii sərvətlərin rolunu vurğulayır.

Realistlər iddia edirlər ki, su yollarına çıxış və strateji hərbi mövqelər kimi coğrafi faktorlar dövlətin təhlükəsizliyi və gücünü layihələndirmək qabiliyyəti üçün kritik dərəcədə əhəmiyyətli ola bilər [3, p.29-30].

Realizmin əsasən dövlətlərin öz təhlükəsizliyini və mövcudluğunu təmin etmək üçün digər dövlətlərlə güc münasibətlərini balanslaşdırmağa çalışacaqları fikrinə istinad edir. Başqa sözlə, qüvvələr balansı konsepsiyasına dayanır. Bu konsepsiya ittifaqların və güc bloklarının yaranmasına, habelə münaqişə və resurslar və ərazi uğrunda rəqabətə səbəb ola bilər.

Realist nəzəriyyə dövlətin beynəlxalq münasibətlərdə əsas aktor kimi əhəmiyyətini vurğulayır və dövlətin əsas məsuliyyətinin özünün və vətəndaşlarının təhlükəsizliyini təmin etmək olduğunu müdafiə edir. Realistlər beynəlxalq təşkilatlara və çoxtərəfli müqavilələrə qarşı skeptisizm ilə yanaşır, onların çox vaxt səmərəsiz olduğunu və super-güc olan dövlətlərin maraqlarına tabe ola biləcəyini iddia edirlər [4, p.60-61].

Bununla belə, realizmin tənqidçiləri iddia edirlər ki, o, həddən artıq deterministik və sadə nəzəriyyədir, mürəkkəb geosiyasi dinamikanı güc və şəxsi maraqlara yönəlmiş dar bir fokus nöqtəsinə endirir. Realizm həm də beynəlxalq münasibətlərin formalaşmasında ideologiya, mədəniyyət və kimliyin rolunu görməzdən gəldiyinə və dövlətlər arasında əməkdaşlığın potensial faydalarını nəzərə almadığına görə tənqid edilmişdir [5]. Bu tənqidlərə baxmayaraq, realizm geosiyasi tədqiqatlarda güclü və təsirli bir nəzəriyyə olaraq qalır və tədqiqatçıların beynəlxalq münasibətlər və təhlükəsizlik haqqında düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır.

1.2. Liberalizm

Liberalizm geosiyasi tədqiqatlarda geniş istifadə edilən digər mühüm beynəlxalq münasibətlər nəzəriyyəsidir. Liberalizm beynəlxalq münasibətlərin formalaşmasında əməkdaşlığın, qarşılıqlı asılılığın və institusional tənzimləmələrin vacibliyini vurğulayır. Beynəlxalq sistemə anarxik baxan və daimi rəqabət və münaqişə ilə səciyyələnən realizmdən fərqli olaraq, liberalizm beynəlxalq normaların, institutların və rejimlərin yaradılması yolu ilə daha sülhsevər və əməkdaşlıq edən dünya yaratmağın mümkün olduğunu müdafiə edir [6, p.10].

Geosiyasət kontekstində liberal nəzəriyyə dövlətlər arasında əməkdaşlığın və sabitliyin təşviqində Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı və regional təşkilatlar kimi qurumların rolunu vurğulayır. Liberallar iddia edirlər ki, beynəlxalq əməkdaşlığı iqtisadi qarşılıqlı asılılıq, azad ticarət və demokratik idarəetmə, həmçinin insan hüquqlarının və liberal demokratik dəyərlərin təşviqi yolu ilə inkişaf etdirmək olar. Liberal nəzəriyyənin mərkəzində demokratik rejimlərin qeyri-demokratik dövlətlərə nisbətən bir-biri ilə müharibəyə getmə ehtimalının daha az olduğunu iddia edən "demokratik sülh" konsepsiyası dayanır. Liberallar həmçinin beynəlxalq hüququn və insan hüquqlarının vacibliyini vurğulayır və bu norma və dəyərlərin münaqişənin sülh yolu ilə həllinə və fərdi hüquqların qorunmasına kömək edə biləcəyini iddia edirlər [7, p.10].

Liberalizmin tənqidçiləri onun həddən artıq idealist və sadəlövh ola biləcəyini, beynəlxalq münasibətlərdə güc və şəxsi maraqların reallıqlarına etinasız yanaşdığını iddia edirlər. Liberallar müxtəlif cəmiyyətlərin mədəni və tarixi xüsusiyyətlərini nəzərə almadan, demokratiya və insan haqlarına "hamıya uyğun" yanaşmanı təbliğ etdiklərinə görə də tənqid olunurlar [8]. Bu tənqidlərə baxmayaraq, liberalizm geosiyasi tədqiqatlarda mühüm bir nəzəriyyə olaraq qalır və tədqiqatçıların beynəlxalq əməkdaşlıq, insan hüquqları və demokratiya haqqında düşüncə tərzinin formalaşmasında mühüm rol oynamışdır. Qlobal idarəçilik, iqtisadi qarşılıqlı asılılıq və insan hüquqlarının təşviqi kimi bir çox müasir geosiyasi debatlar liberal ideyalar və dəyərlərdən dərindən təsirlənir.

1.3. Hartland və Rimland nəzəriyyələri

Hartland və Rimland nəzəriyyələri 20-ci əsrin əvvəllərində ortaya çıxan iki geosiyasi nəzəriyyədir. İngilis coğrafiyaşünas Halford Makkinder və amerikalı strateq Nikolas Spaykman tərəfindən hazırlanmış bu nəzəriyyələr müxtəlif regionların strateji əhəmiyyətini və onların qlobal güc münasibətlərini necə formalaşdırdığını izah etməyə çalışırdı. Hartland nəzəriyyəsi iddia edir ki, Rusiya və Mərkəzi Asiyanın geniş daxili bölgələrini əhatə edən Avrasiya quru hissəsinə nəzarət dünya hökmranlığının açarıdır. Makkinderin fikrincə, Hartland dünyanın qalan hissəsi üzərində nəzarəti bərqərar etmək mümkün olan dünyanın "dönmə sahəsidir". Makkinder iddia edirdi ki, Hartlandə kim nəzarət edirsə,

bütün dünyanı idarə etmək potensialına malikdir və qlobal güc balansı böyük güclərin bu bölgəyə nəzarət etmək qabiliyyətinə əsaslanır [9, p.58].

Rimlənd nəzəriyyəsi isə, Hartləndin ətrafındakı sahil ərazilərinə nəzarətin qlobal gücün açarı olduğunu müdafiə edir. Spaykmanın sözlərinə görə, Avropa, Asiya və Afrikanın sahilyanı ərazilərini özündə birləşdirən Rimlənd dünyanın ən mühüm strateji bölgəsidir. Spaykman iddia edirdi ki, Rimləndin nəzarəti Hartlənd üzərində nəzarətə imkan verir və qlobal güc balansı böyük güclərin Rimləndi idarə etmək qabiliyyətinə əsaslanır [1, p.20-21].

Həm Hartlənd, həm də Rimlənd nəzəriyyələri geosiyasi strategiyanın və təhlilin formalaşmasında təsirli olmuşdur. Xüsusilə Soyuq Müharibə ABŞ və Sovet İttifaqının müvafiq olaraq Rimlənd və Hartlənd bölgələri üzərində nəzarət uğrunda rəqabət apardığı bir dövr idi. Soyuq Müharibədən sonrakı dövrdə bu nəzəriyyələr, xüsusən də Çinin yüksəlişi, Rusiyanın dirçəlişi və Avropa Birliyinin qlobal siyasətdəki rolu ətrafında müzakirələrdə geosiyasi təhlili məlumatlandırmaqda davam edir.

Bu nəzəriyyələri tənqid edənlər iddia edirlər ki, onlar həddən artıq determinist və sadə ola bilər, çünkü mürəkkəb geosiyasi dinamikanı dar bir əraziyə nəzarətə yönəldirlər. Onlar həmçinin qlobal güc münasibətlərinin formalaşmasında mədəni, sosial və iqtisadi amillərin əhəmiyyətinə diqqət yetirmədikləri üçün tənqid olunublar [10]. Buna baxmayaraq, Hartlənd və Rimlənd nəzəriyyələri geosiyasi tədqiqatlarda vacib nəzəriyyələr olaraq qalırlar və qlobal gücün bölüşdürülməsi və müxtəlif regionların strateji əhəmiyyəti ətrafında müzakirələri yönləndirməkdə davam edirlər.

2. Yeni geosiyasət nəzəriyyələri

2.1. Neorealizm

Struktur realizm kimi də tanınan neorealizm geosiyasi tədqiqatlara əhəmiyyətli təsir göstərmiş görkəmli beynəlxalq münasibətlər nəzəriyyəsidir. 1970-ci illərdə amerikalı politoloq Kennet Vals tərəfindən işlənib hazırlanmış neorealizm ayrı-ayrı dövlətlərin daxili xüsusiyyətlərinə deyil, sistemin özünün strukturuna diqqət yetirməklə beynəlxalq sistemdə dövlətlərin davranışını izah etməyə çalışır. Neorealizm iddia edir ki, beynəlxalq sistem anarxiya ilə xarakterizə olunur, yəni qaydaları tətbiq etmək və ya dövlətlər arasında münaqişələri həll etmək üçün heç bir mərkəzi orqan yoxdur. Belə bir sistemdə dövlətlər öz təhlükəsizliklərini və sağ qalmalarını təmin etmək üçün öz güc imkanlarına arxalanmalıdırlar. Neorealistlər iddia edirlər ki, bu, dövlətlərin daim digər dövlətlərə nisbətən güclərini artırmağa çalışdıqları özünə kömək sisteminə gətirib çıxarır [11].

Neorealizmə görə, beynəlxalq sistemdə güc bölgüsü dövlətlərin davranışını müəyyən edən ən mühüm amildir. Xüsusilə, neorealistlər güc bölgüsünün dəyişdiyi və yüksələn gücün qurulmuş hakimiyyəti sıxışdırmaq təhlükəsi ilə üzləşdiyi dövrlərə aid olan "hakimiyyət keçidi" konsepsiyasına diqqət yetirirlər. Neorealistlər iddia edirlər ki, bu cür hakimiyyət keçidləri beynəlxalq münasibətlərdə ən təhlükəli dövrlərdir, çünki onlar çox vaxt rəqabət, qeyri-sabitlik və müharibə riski ilə müşayiət olunur.

Neorealizm geosiyasi tədqiqatlara, xüsusən də beynəlxalq sistemdə gücün bölüşdürülməsi və böyük dövlətlərin davranışı ilə bağlı müzakirələrə əhəmiyyətli təsir göstərmişdir. Neorealizmin tənqidçiləri onun dövlətlərin davranışının formalaşmasında daxili siyasətin, ideologiyanın və mədəniyyətin əhəmiyyətini aşağı qiymətləndirdiyini iddia edirlər. Neorealizm həm də iqtisadi qarşılıqlı asılılıq, beynəlxalq institutlar və qeyri-dövlət aktorları kimi digər amilləri nəzərə almayaraq, güc imkanlarına az diqqət yetirdiyinə görə tənqid edilmişdir [12]. Bu tənqidlərə baxmayaraq, neorealizm geosiyasi tədqiqatlarda mühüm bir nəzəriyyə olaraq qalır və mütəxəssislərin beynəlxalq münasibətlər haqqında düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Güc balansı və güc keçidləri kimi neorealist ideyalar və konsepsiyalar qlobal güc münasibətləri, Çinin yüksəlişi və beynəlxalq sistemin dəyişən təbiəti ətrafında müzakirələrə yön verməyə davam edir.

2.2. Neoliberalizm

Neoliberalizm qlobal güc münasibətlərinin formalaşmasında iqtisadi amillərin əhəmiyyətini vurğulayan beynəlxalq münasibətlər nəzəriyyəsidir. 20-ci əsrin sonlarında inkişaf etdirilən neoliberalizm qlobal iqtisadiyyatın dövlətlərin qarşılıqlı əlaqədə olduğu və bir-biri ilə rəqabət apardığı ən mühüm arena olduğunu müdafiə edən liberalizmin bir variantıdır. Neoliberalizm azad ticarətin, açıq bazarların və qloballaşmanın vacibliyini vurğulayır və iqtisadi qarşılıqlı asılılığın dövlətlər arasında sülh və

əməkdaşlığa kömək edə biləcəyini müdafiə edir. Neoliberal nəzəriyyəçilər iddia edirlər ki, iqtisadi artım və rifah qlobal sabitliyin açarıdır və dövlətlər iqtisadi inkişafı və ticarəti təşviq etmək üçün birlikdə çalışmalıdırlar [13].

Neoliberalizm qlobal güc münasibətlərinin formalaşmasında beynəlxalq institutların və qeyri-dövlət aktorlarının rolunu da vurğulayır. Neoliberal nəzəriyyəçilərə görə, Ümumdünya Ticarət Təşkilatı və Beynəlxalq Valyuta Fondu kimi qurumlar iqtisadi əməkdaşlığın təşviqində və dövlətlər arasında münaqişələrin idarə olunmasında mühüm rol oynayır. Neoliberalizm qlobal güc münasibətlərinin formalaşmasında çoxmillətli korporasiyalar və qeyri-hökumət təşkilatları kimi qeyri-dövlət aktorlarının rolunu da vurğulayır.

Neoliberalizmin tənqidçiləri iddia edirlər ki, o, güc siyasətinin əhəmiyyətini və qlobal güc münasibətlərinin formalaşmasında dövlətin rolunu yetəri qədər qiymətləndirmir. Onlar iddia edirlər ki, neoliberalizm iqtisadi amillərin əhəmiyyətini həddindən artıq qabardır və qlobal siyasətin formalaşmasında hərbi gücün, strateji maraqların və mədəni amillərin rolunu kiçildir [14]. Bu tənqidlərə baxmayaraq, neoliberalizm geosiyasi tədqiqatlara əhəmiyyətli təsir göstərmiş və iqtisadi qloballaşma, azad ticarət və qlobal münaqişələrin idarə olunmasında beynəlxalq institutların rolu ətrafında müzakirələrə təsir etmişdir. Neoliberalizm həmçinin bir çox dövlətlərin, xüsusən də Qərbin xarici siyasətinin formalaşmasında əhəmiyyətli faktor olub və bütün dünyada iqtisadi liberallaşmanın və azad ticarətin təşviqində mühüm rol oynayıb.

2.3. Post-kolonializm

Post-kolonializm qlobal güc münasibətlərinin formalaşmasında müstəmləkəçilik və imperializmin mahiyyətini anlamağa çalışan beynəlxalq münasibətlər nəzəriyyəsidir. 20-ci əsrin sonlarında inkişaf etdirilən postkolonializm qlobal siyasətdə üstünlük təşkil edən Qərb perspektivinə meydan oxuyur və əvvəllər müstəmləkə olmuş dövlətlərin və xalqların perspektivlərinin və təcrübələrinin əhəmiyyətini vurğulayır. Post-kolonial nəzəriyyəçilər iddia edirlər ki, müstəmləkəçilik irsi qlobal güc münasibətlərini, xüsusən də iqtisadi inkişaf, mədəni kimlik və siyasi güc sahələrində formalaşdırmağa davam edir. Onlar iddia edirlər ki, keçmiş müstəmləkə və müstəmləkəçi dövlətlər arasında güc və resursların qeyri-bərabər bölüşdürülməsi zülm və istismar sistemini əbədiləşdirir, eləcə də müstəmləkəsizləşdirmə və öz müqəddəratını təyinetmə uğrunda davam edən mübarizə beynəlxalq ictimaiyyətin qarşısında duran əsas problem kimi çıxış edir [15].

Post-kolonializm beynəlxalq münasibətlərin bir çox dominant nəzəriyyələrinin əsasında duran avrosentrik və imperialist fərziyyələrə qarşı çıxmağın vacibliyini vurğulayır. Post-kolonial nəzəriyyəçilər iddia edirlər ki, əvvəllər müstəmləkə olmuş xalqların perspektivləri və təcrübələri sistematik olaraq qlobal güc münasibətlərindən kənarlaşdırılıb. Bu baxımdan, müstəmləkəçilik və imperializmin davam edən irsini tədqiq etmək üçün qlobal siyasətin daha əhatəli yanaşması zəruridir [16].

Post-kolonializmin tənqidçiləri iddia edirlər ki, o, "şəxsiyyət siyasəti"nə həddən artıq diqqət yetirir və qlobal siyasətin formalaşmasında güc münasibətlərinin və strateji maraqların əhəmiyyətini görmür. Tənqidçilər həmçinin iddia edirlər ki, postkolonializm keçmiş müstəmləkə olmuş xalqların və millətlərin təcrübələrinə çox dar bir şəkildə diqqət yetirir və qadınlar, azlıqlar və yoxsullar kimi digər marginal qrupların perspektivlərinə və təcrübələrinə sistemli yanaşmır [17]. Bu tənqidlərə baxmayaraq, post-kolonializm geosiyasi tədqiqatlara, xüsusən də qlobal siyasətdə üstünlük təşkil edən Qərb perspektivlərinə meydan oxumaqda və güc münasibətlərinin daha əhatəli tədqiqini təşviq etməkdə əhəmiyyətli faktor rolunu oynamışdır. Post-kolonializm həm də əvvəllər müstəmləkə olmuş xalqların hüquq və mənafelərinin qorunmasının təşviqində mühüm rol oynamış və qlobal güc münasibətlərində müstəmləkəçilik və imperializmin nəticələrini aradan qaldırmaq üçün davamlı səylərə töhfə vermişdir.

Nəticə. Tədqiqatın nəticəsi olaraq ümumi şəkildə qeyd etmək mümkündür ki, realizm və liberalizm geosiyasətdə ən çox bilinən iki nəzəriyyədir və onların bəzi oxşar və fərqli cəhətləri var. Realizm qlobal siyasətin formalaşmasında hərbi gücün və milli maraqların əhəmiyyətini, liberalizm isə dövlətlər arasında əməkdaşlığın və dinc münasibətlərin inkişafında iqtisadi amillərin və institutların rolunun vacibliyini vurğulayır. Realizm güman edir ki, dövlətlər rasional və şəxsi mənafeləri olan aktorlardır, liberalizm isə dövlətlərin ümumi maraqları və qarşılıqlı faydaları təşviq etmək üçün birlikdə işləyə biləcəyini güman edir.

Hartlənd və Rimlənd nəzəriyyələri qlobal güc münasibətlərində coğrafi regionların strateji əhəmiyyətinə dair mühüm perspektivlər təqdim edir. Halford Makkinder tərəfindən hazırlanmış Hartlənd nəzəriyyəsi, Avrasiya quru hissəsinin, xüsusən də Mərkəzi Asiya bölgəsinin qlobal gücün açarı olduğunu və bu bölgəyə nəzarətin qlobal dominantlıq üçün vacib olduğunu iddia edir. Nikolas Spaykman tərəfindən hazırlanmış Rimlənd nəzəriyyəsi isə iddia edir ki, Avrasiyanın dəniz periferiyasına, xüsusən də sahilyanı ərazilərə nəzarət qlobal güc üçün daxili quru kütləsinə nəzarətdən daha vacibdir.

Neorealizm və neoliberalizm də öz növbələrində qlobal güc münasibətlərinin formalaşmasında institutların və qeyri-dövlət aktorlarının rolu haqqında daha nüanslı perspektivlər təqdim edir. Struktur realizm kimi tanınan neorealizm dövlət davranışının formalaşmasında və dövlətlər arasında hakimiyyətin bölüşdürülməsində beynəlxalq sistemin rolunu vurğulayır. Neoliberalizm isə dövlətlər arasında əməkdaşlıq və sülh münasibətlərinin inkişafında beynəlxalq institutların və iqtisadi qarşılıqlı asılılığın əhəmiyyətini vurğulayır.

Post-kolonializm qlobal siyasətdə üstünlük təşkil edən Qərb perspektivinə meydan oxuyur və qlobal güc münasibətlərinin formalaşmasında müstəmləkəçilik və imperializmin nəticələrinə diqqət çəkir. Bu nəzəriyyə iddia edir ki, əvvəllər müstəmləkə olmuş xalqların təcrübələri sistematik olaraq qlobal güc münasibətlərindən kənarlaşdırılmış və diqqətdən kənarda qalmışdır.

Çölməklər. Nüydi yaşayış yeri sakinlərinin ən xarakterik keramika məmulatlarından olan çölməklər nisbətən iri həcmli olub, qırmızı rəngdədir. Çölməklər əsasən ikiqulplu olmuşdur. Bu qablar bir növ sərnicə də oxşayırlar. Məhz çölməklər maldarlıqla əlaqədar sərnic funksiyasını da ifa etmişdir. Cam və badyaların fərqli formaları Qırlartəpə qəbir abidəsi və yaşayış yerlərindən xeyli miqdarda tapılmışdır. Onların ağzının kənarı içəriyə doğru əyilmiş formada olub, düz oturacağa malikdir. Bu saxsı qabların xaricindən ağzının kənarına yaxın üfüqi şəkildə yapışdırılmış qulpları vardır. Qırmızı rəngdədir. Qulpların üstündən barmaq işlədilmək üçün deşik açılmışdır. Bəzi hallarda qulpların üstü müxtəlif naxışlarla bəzədilmişdir. Bəzəklərin müxtəlifliyi burada duluzçuların zəngin yaradıcılığının məhsulu kimi qeyd etmək olar. Buna baxmayaraq bu qabların əksəriyyətinin üzərində heç bir naxışlama işləri görülməmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi Qırlartəpə abidəsindən tapılmış cam və badyaların fərqli formalarına tez-tez rast gəlinmişdir (7, s.15-16). Qulpu dərin camlar, nazik divarlı camlar, çiynində lentşəkilli qulpu olan badyalar və s. Belə cam və badyaların bir çoxu eramızın əvvəllərinə aid yaşayış yerlərindən tapılmış və məişətdə geniş yayılmışdır. Qazıntılar zamanı Qırlartəpə yaxınlığındakı nekropoldan mis və gümüş camlara da rast gəlinmişdir. Belə çox təbəqəli abidənin öyrənilməsi Azərbaycan tarixinin tədqiqi sahəsində xüsusi əhəmiyyət kəsb edir.

Dolçalar və bardaqlar. Bu cür qablar əsasən qara, qırmızı və sarımtıl rəngli gildən əllə hazırlanmış, gövdələri bir qədər şişkin, boğazı enli, çiyni ilə ağzının kənarını birləşdirən və çiynində halqavarı düzəldilən tək qulpları vardır. Bu qabların müxtəlif formaları Nüydi torpaq qəbirlərindən xeyli tapılmışdır. Nüydidən tapılmış dolçaların bəzilərinin üzəri sayadır. Onların nehrə qulpuna oxşar qulpu, gövdəsində isə iki məməciyi olanlarına da təsadüf edilmişdir. Üzərinə qırmızı rəng çəkilənləri də

vardır. Nüydi torpaq qəbirlərindən tapılmış dolça növlərindən biri daha çox diqqət cəlb etmişdir. Bu qablar gövdəli və üçayaqlı düzəldilmişdir. Ayaqları qısa, altı sferik formada olub, boğazı silindrik və enlidir. Belə dolça növü Nüydi, eləcə də bütün tədqiqat rayonundan tapılan yeganə nümunədir (7, s.2).

Görkəmli alim Fazil Osmanov Sultankənddən tapılmış eyni adlı bir dolçanın təsvirini öz kitabında vermiş və maraqlı fikirlər söyləmişdir. Bu qabın qulpunun çiyin hissəsinə yapışdırılmış istiqamətində bərabər məsafədə üç yerdə basılmış çökəklərin ətrafında, günəş şüasını xatırladan düz xətlər çəkilmişdir. Bu qabın rənglənməsi və çiynində düz xətlər çəkilməsi, günəş təsvirinin verilməsi, onu müəyyən dini etiqadla əlaqədar olaraq hazırlandığını bildirir. Çox güman ki, sənətkar burada günəşi həyatın mühüm amili göstərməyə çalışmışdır. Araşdırdığımız ərazidən tapılmış bu qabların üzərində bəzək olmamışdır. Bu da həmin qabların yalnız gündəlik tələbat üçün hazırlandığını bildirir. Bu qablar da digərləri kimi əllə hazırlanmışdır (9, s.82-83).

Nüydi qazıntılarından tapılmış müxtəlif formalı və həcmli bardaqlar əsasən şargövdəli və düz oturacaqlı olub, yalnız ağız hissəsinin formaları ilə seçilir. Bu tip qablar Qafqaz Albaniyasının əksər abidələrində aşkar edilmişdir.

Qırlartəpədə aparılmış arxeoloji qazıntılar zamanı rast gəlinmiş dolça və bardaqlar daha maraqlıdır. Tapılmış dolça nümunələrindən düz oturacaqlı, ağzı üçgül, arxadan tək qulpu çiynidə ağzının kənarına yapışdırılmış formada olanları, ağzı üçgül tək qulp lüləkli saxsı dolçalar və Qırlartəpə ilə kənd yeri arasındakı nekropoldan bir neçə iri dolça növləri də tapılmışdır.

Belə qabların formasındakı dəyişiklikləri müxtəlif istifadə məqsədini və gil qab istehsalında inkişaf prosesini göstərən amillərin biri kimi qeyd etmək olar. Deməli dolçalar, bardaqlar və dopular tipinə aid olan qablar da daha çox mətbəx keramikasına aid edilə bilər.

Qazan tipli saxsı qablar. Bu cür saxsı qab nümunələri araşdırdığımız ərazilərdəki qədim abidələrdə rast gəlinmişdir Məqalədə müraciət etdiyimiz Nüydi və Qirlartəpə abidələrinin nekropolundan arxeoloji tədqiqat işləri zamanı qazan tipli qabların qırıq və bütövləri daha çox aşkar edilmişdir (2,s.16). Əsasən Qırlartəpə abidəsindən tapılan belə qablar ölçüsünə, qalınlığına, keyfiyyətinə görə müxtəlif olmaqla yanaşı daşıdığı vəzifə və formalarına görə də bir-birindən fərqlənirlər. Bu tip qablar qalın divarlı, ağzı xaricə doğru azca əyilmiş formadadır. Üzəri şüyrələnib hamarlanmış qazan tipli qabların əksəriyyətinin qulpları üfüqi şəkildədir. Od üzərində istifadə edildiyindən qaralmışdır. Aşkar edilmiş qazan nümunələrinin bütövlərinin içərisində heyvan sümükləri olmuşdur. Dairəvi formada hazırlanmış gil qazanların oturacaqları daha qalın, kənarı isə nisbətən nazikdir. Bunların əksəriyyəti bozumtul rəngdədir. Qazan tipli qablar çox vaxt "gil tava" adı ilə də adlanır. Əksəriyyətinin xarici hissəsi yanmış şəkildə olan qazan tipli qabların gilinə iri və xırda qum qarışdırılmışdır. Sözsüz ki, bu qabların mətbəxdə işlədildiyindən sənətkarlar oda davamlı olması üçün bu üsuldan istifadə etmişlər. Bu qabların oturacaq hissəsi daha qalın hazırlanmış və əksəriyyətinin əllə tutmaq üçün qulpları vardır. Araşdırdığımız ərazidən tapılmış qazan tipli saxsı qabların oxşar nümunələri Qafqaz Albaniyasının digər abidələrindən də tapılmışdır.

Gil çıraqlar. Mənzillərin işıqlandırılmasında müxtəlif dövrlərdə müxtəlif növ çıraqlardan istifadə edilmişdir. Antik dövrə aid çıraqlardan istifadə haqqında az məlumat olsada həmin dövrdə tək ayaq və üç ayaqlı vazalar və bu kimi qablardan şamdan kimi istifadə olunduğu bilinir. Bunu tədqiqat ərazisində aparılmış arxeoloji qazıntılar bir daha sübut etmişdir. Yəni bilavasitə çıraq kimi istifadə edilmiş qablar Nüydi, Qırlartəpə və digər abidələrdən xeyli tapılmışdır (9, s. 17-18). E.ə. II-I və eramızın əvvəllərinə aid olan bu çıraqların irəliyə doğru uzanan dar, uzunsov novçası vardır ki, onların bu hissəsi hisdən qaralmışdır. Bunların ağzı örtülməklə müəyyən yanacaq növlərindən, çox güman ki, neft məhsullarından istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı Qırlartəpədən tapılmış qısa lüləkli çıraq və onun yanındakı qabdan aşkar edilən qatran qalığı bunu bir daha təsdiqləyir. Əsasən qırmızı rəngdə olan çıraqların boz rəngdə olanlarınada rast gəlinmişdir. Belə çıraqlarda lülək çox qısa olaraq ucu dik dayanır. Bu isə onun içərisindəki yanacağın maye halında olmasına əsas verir. Tapılmış hissələrdən bilinir ki, onun gövdəsi dəyirmi olmuşdur. Qulpunun olub-olmaması məlum deyildir.

Arxeoloji qazıntılar zamanı Mingəçevir küp qəbirlərindən tapılmış çıraq nümunələri əvvəlki dövrlərə aid tapılmış çıraq nümunələrindən forma baxımından xeyli fərqlənmişlər. Bu çıraqlarda yağ yandırıldığı ehtimal edilir (9 ,s.12). İkimərtəbəli düzəldilmiş bu çıraqların üst hissəsində qulp vardır. Həmin qulp vasitəsi ilə çırağı divar və ağacdan asmaq mümkündür. Müəyyən məlumatlara görə keç-

mişdə Kür qırağında çıraqları yandırmaq üçün ən çox balıq yağından, əsasən ilan balığından istifadə etmişlər.

Nəticə. Ağsu rayonunda yerləşən Nyüdi, Qırlartəpə arxeoloji qazıntılarından aşkar edilən keramika məmulatları öz unikallığı, hazırlanma texnologiyasının dəqiqliyi, forma və funksional baxımından müxtəlifliyi ilə Albaniyanın digər eynidövr abidələrindən kəskin fərqlənməsə də, müəyyən elementləri ilə mükəmməldirlər. Araşdırmanın nəticəsi olaraq qeyd etmək lazımdır ki, yaşayış yerinin əhalisi saxsı artefaktları uzun müddət istifadə etmişlər. Bu qabların əksəriyyəti bütöv şəkildə günümüzə gəlib çatmasa da, onların dəqiq atribusiyası çətinlik yaratmır.

ƏDƏBİYYAT

1. Osmanov F.L. Ağsu rayonunun Nüydi kəndində 1965-ci il arxeoloji kəşfiyyat qazıntısının hesabatı. Bakı, 1965, 18 s.
2. Osmanov F.L. Q.C.Cəbiyev. 1986-cı il Ağsu - İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1986, 21 s.
3. Osmanov F. L. Qafqaz Albaniyasının maddi mədəniyyəti: e.ə. IV və b.e. III əsrləri. Bakı," Elm", 1982, 160 s.
4. Göyüşov R.B. Dulusçuluq sənətində gil qabların anqoblanması üsulu haqqında. Azərbaycanın Maddi Mədəniyyəti. IV cild. Bakı, "Elm", 1965, s.23-36.
5. Osmanov F.L., Cəbiyev Q.C., S.B.Hüseynova. 1988-ci il Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1988, 25 s.
6. Dövlət Ermitajı, Qafqaz şöbəsi №K3 6233-6235.
7. Osmanov F.L., Cəbiyev Q.C. 1986-cı il il Ağsu-İsmayıllı arxeoloji ekspedisiyasının hesabatı. Bakı, 1986 , 22 s.
8. Hüseynova T.T. Ağsu rayonunun antik dövr arxeoloji abidələri. Bakı,"Nafta Press", 2006, 135 s.
9. Qazıyev S.M. Mingəçevir arxeoloji tədqiqatları. Küp qəbirləri albomu. Bakı, "Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı", 1960, 118 s.

ТОВХА ГУСЕЙНОВА
Доцент Института Археологии и Антропологии НАНА

О КЕРАМИКЕ, НАЙДЕННОЙ В ПАМЯТНИКАХ НЮЙДИ И ГЫРЛАРТЕПЕ КАВКАЗСКОЙ АЛБАНИИ (АГСУИНСКИЙ РАЙОН)

В статье сообщается о керамических изделиях памятников Нюйди и Гырлартепе, древних памятниках Аксуинского района, который был одним из центральных областей Кавказской Албании. Автор рассматривает предметы материальной культуры из археологических исследований в качестве ценного источника для изучение культурно-экономической и политической жизни Кавказской Албании, важной части культуры Азербайджана. В статье указывается на особую роль керамических изделий в быту албанцев. Подчеркивая богатство и многотипность керамических образцов из поселений и погребальных памятников Нюйди и Гырлартепе, имеются широкие сведения о керамике, отражающей в себе все тонкости гончарного ремесла.

Ключевые слова: Кавказская Албания, хозяйственная жизнь, керамика, Гырлартепе, Нюйди.

TOVKHA HUSEYNOVA
Docent of the Institute of Archeology and Anthropology of National Academy of Sciences of Azerbaijan

ABOUT THE CERAMICS FOUND IN NUYDI AND KIRRTAPE MONUMENTS OF CAUCASIAN ALBANIA (AGHSU DISTRICT)

The article provides information about the ceramic products found in the ancient monuments of Nuyudu and Kırlartapa in Agsu region, ühich are considered to be central parts of Caucasian Alba-

nia. The author states that material cultural remains obtained as a result of archaeological research are avaluable resource for studing the economic, cultural and political life of Caucasian Albania and points out that they are an important part of Azerbaijan culture.

İn the article says that ceramic products occupy a special place in the lives of Albanians, as in other nations. The article drew attention to the diversity and richess of ceramic samples found in the grave monuments of Nuyudu and Kırlartapa settlement and gave extensive information about the ceramic products that reflect the pearls of the art of pottery.

Keywords: Caucasian Albania, farm life, ceramica, Kırlartapa, Nuydu

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Qənirə Pirquliyeva, t.e.d. Əmrah Dadaşov.

UOT: 94 (479.24); UOT 930.2

ƏLƏDDİN MƏLİKOV
Azərbaycan İlahiyyat İnstitutunun dosenti,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177
aladdin.malikov@gmail.com

XACƏ NƏSİRƏDDİN TUSİNİN "BAĞDAD HADİSƏSİNİN KEYFİYYƏTİ" TRAKTATININ TƏRCÜMƏSİ VƏ QISA TƏSVİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/275-281

Xacə Nəsirəddin Tusi həm böyük alim və nəzəriyyəçi, həm də görkəmli siyasi xadim olmuşdur. O Hülakü xanın və oğlu Abaqa xanın rəğbətini qazanmış, sarayda böyük nüfuz və hörmətə sahib olmuşdur. Həmçinin İlxanilər dövlətinin daxili və xarici siyasətinin təyin edilməsində mühüm rol oynamışdır. Monqolların İslam coğrafiyasına, xüsusilə də İslam xilafətinin mərkəzi Bağdada hücumu ciddi nəticələrlə yadda qalıb. O cümlədən Bağdadın süqutu, Abbasilər sülaləsinin aradan getməsi, xəlifənin öldürülməsi və sözügedən coğrafiyada geniş dağıntıların ortaya çıxması onların hücumunun nəticələri kimi qiymətləndirilir.

Bu məqalədə sözügedən ittiham barədə qısaca məlumat vermək və onu ən qədimi tarixi mənbələrə əsaslanaraq təkzib etmək niyyətindəyik. Buna görə qərara gəldik ki, ilk mərhələdə "Cahangüşayi Cuveyni" kitabında gələn Xacə Nəsirəddin Tusinin (şəxsən özünün yazdığı) "Bağdad hadisəsinin keyfiyyəti" adlı qısa traktatının (risaləsinin) mətnini tərcümə edək. Bu traktatın qısa olmasına baxmayaraq, Hülakü xanın döyüşlə bağlı qərar verməsindən ta Bağdadın tutulması və Abbasi xilafətinin dağılmasının daxili amillərinin təhlilinə qədər bütün məqamlara toxunulmuşdur. Traktatın əhəmiyyəti onun mövzu ilə bağlı ən yaxın və yaxşı iştirakçısı tərəfindən yazılmasıdır. Çünki əvvəla Nəsirəddin Tusinin özü Bağdad hadisəsinin əyani şahidi olmuşdur. İkincisi budur ki, Tusi bu əsərdə monqolların Bağdada yürüşünün mahiyyətini araşdırıb, Hülakü xanın bura yürüşündə özünün hər hansı bir fəaliyyəti və rolundan söz açmayıb. Üçüncü budur ki, əgər Tusi bu hadəsədə rolu olmuş olsaydı və ya başqa əqidə daşıyıcılarından intiqam almaq fikrində olsaydı, baş verənlərlə bağlı azacıq da olsa öz roluna işarə edər və ya öz rolunu və razılığını nümayiş etdirərdi. Halbuki bu traktatda əsla bu məsələ müşahidə edilmir.

Açar sözlər: Nəsirəddin Tusi, Bağdadın süqutu, Hülakü xan, Son Abbasi xəlifəsi, Mötəsim.

Giriş. Hücum edən qövmün, yəni Moğolların bölgədə yerləşməsindən yarım əsr sonra İbn-Teymiyyə Hərrani (h.q.661-728, m:1263-1328) tarixi faktlara istinad etmədən böyük mütəfəkkir Xacə Nəsirəddin Tusinin (1201-1274) Hülakü xanı (1217-1265) təhrik etməsi və (Bağdada hücumla bağlı) əməkdaşlıq etməsinə dair ittihamlar irəli sürmüşdür. İbn-Teymiyyənin İbn-Qəyyim əl-Cövzi (h.q: 691-751, m:1292-1350) kimi şagirdləri də bu ittihamları təkrarlayıb, öz kəlam, tarix, rical, hətta əxlaq kitablarında yazıb, yaymışlar.

Bir haldakı Xacə Nəsirəddin Tusinin siyasi fəaliyyəti daim öz xalqının içindən çıxmış sadə adamların və eləcə də elm adamlarının və üləmaların mənafelərinin ödənilməsinə yönəlmişdir. 1258-ci ildə Hülakü xan Bağdadı tutarkən məhz N.Tusi onu yol verə biləcəyi böyük dağıntı və qırğınlardan çəkindirmişdir. Şəhəri dağıtmağa elm və mədəniyyət adamlarına divan tutmağa qoymamışdır. Hökmdarın əsəblərini cilovlamağa çalışmışdır. Hətta Xacə Nəsirəddin Tusiyə pislik etmiş xəlifənin vəziri İbn Vacib Nəhvini tapdırıb onu xilas etmiş və ona böyük qayğı göstərmişdir. Bu xəbəri eşidən Hülakü xan çox xoşhal olmuş və onların hər ikisini təqdir etmişdir. Xacə Nəsirəddin Tusinin Bağdad üləmasına və əhalisinə və həmçinin şəhərə etdiyi bu yaxşılıqlar dövrünün qələm sahibləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Xacə Nəsirəddin Tusi Hülakü xanı inandırmağa çalışrdı ki zəbt olunmuş torpaqlara dövləti münasibət bəsləmək lazımdır. Beləki Fəzlüllah Rəşidəddin "Came ət-Təvarix" əsərində yazırdı ki, Xacə Nəsirəddin Tusi işğal olunmuş ərazilərin viranə qalmaması üçün onların maliyyə və büdcə məsələlərini nizma salmağı tövsiyə etmişdir. Baxmayaraq ki, monqollar onu

zindandan xilas etmişdilər. Amma o monqolların istilaçı müharibələrini daim tənqid edir və sülhü təqdir edirdi. Bütün bu səbəblərə görə onun bu müharibəni başlatması töhmət və iftiradan başqa bir şey deyildir.

Bu traktat Ətaməlik Cuveyninin ərsəyə gətirdiyi "Cahangüşayi Cuveyni" əsərindən iqtibas edilib. Yazının əvvəli belədir: "Alimlərin ən fəzilətlisi, bəşərin ustadı haqqın və dinin yardımçısı mərhum Məhəmməd ibn Məhəmməd Tusinin nüsxəsindən" (1).

"Cahangüşayi Cuveyni" əsəri haqqında. "Cahangüşayi Cuveyni" tarixi məşhur tarixçi və ədib Ələddin Ətaməlik Məhəmməd Cuveyninin (h.q: 681-623) monqolların, xarəzmşahilərin, Ələmutdakı ismaililərinin 655 hicri ilinə qədərki zamanı ehtiva edən tarixi haqqında kitabıdır. Ədəbi və tarixi baxımdan mühüm əsərlərdən sayılır. Hicri təqvimi ilə yeddinci əsrin sayılıb-seçilən əsərlərindəndir. "Tarixi Cahangüşayi Cuveyni" adı ilə məşhurlaşmış bu kitab İslamdan sonrakı tarix və coğrafiya üçün, xüsusilə də monqolların zamanı üçün klassik və əhəmiyyətli mənbələrdəndir. Əsər Məhəmməd Qəzvininin (h.ş: 1256-1328, m: 1874-1949) vasitəsilə və onun düzəlişləri ilə 1937-ci ildə nəşr edilib. Qəzvini kitaba əlavə etdiyi girişdə yazıb:

"İslamdan sonra indiyədək baş verən hadisə, hətta tarixin ən mühüm hadisəsi monqolların dəhşətli hücumları və basqınlarıdır. O keşməkeşlərin içində və firnə dalğalarının ortasında bu vəhşiləri qətlinə, qarətinə, taracına ən çox məruz qalan məmləkətlərindən biri bizim bədbəxt (İran) vətənimizdir. Belə ki, monqolların dünyanı bürüyən bu tufanı o ölkənin eni və uzununu alt-üst etdi. O dəhşətli hadisənin yandırıcı şölələri məmləkətləri başdan-başa yandırıb yaxdı. O məşum hadisədə minlərlə və yüz minlərlə günahsız insanın canına qıyıldı, elm bə ədəb mərkəzləri büsbütün yandırıldı, yerli sərvət və sənaye resursları məhv edildi, alimlər və fəzilətli insanların hamısını bir yerdə qoyun kimi kəsdilər. Kitabxanaları və kitab oxuyanları yox edib aradan qaldırdılar. Monqolların İran coğrafiyasını istila etməsinin ən yüngül zərər və nəticəsi bu idi ki, elm və ədəb bu bölgədə ən aşağı dərəcəyə endi, bir məmləkətdə ədəbiyyatın tənəzzülünün ən aşağı dərəcəsi nədirsə o baş verdi. Bütün bunlarla yanaşı qəribə bu idi ki ədəbiyyat və elmin bir sahəsi yəni *tarix* monqolların dövründə tam şəkildə rəvac tapdı və böyük tərəqqi yolu keçdi. İndiyədək fars dilində yazılmış nəfis tarix kitablarının bir qismi o dövrdə qələmə alınmışdır. O cümlədən həmin bu kitab, yəni Ələddin Ətaməlik Cuveyninin "*Tarixi Cahangüşa*" kitabı hicri qəməri təqvimi ilə 658-ci ildə yazıldı.

Bu əsərin müəllifi illərlə Arqun xan, Hülakü xan və oğlanlarının, həmçinin Abaqa xan və Tekuder xanın sarayında vəzifə sahibi, habelə o dövrün çoxlu hadisələrinin yaxından şahidi olmuşdur. Hadisələrin bir qismini də dövrün şahidlərindən, xarəzmşahilər və monqolların sarayında olan qohumlarından eşidib. "*Tarixi Cahangüşa*" sırf tarix kitabı deyil. Çünki müəllif hadisələri yazan zaman iqtisadi və ictimai vəziyyət, şəhərlərin quruluşu, onların coğrafi mövqeyi və şəhərlərin qədimi adları barədə misli görünməyən məlumatlar verir (2).

Ələddin Əbul-Muzəffər Ətaməlik ibn Bəhauddin Məhəmməd Cuveyni (h.q: 623-681) hicri təqvimi ilə VII əsrin ədibi və tarixçisidir. "Cahangüşayi Cuveyni" və "Risaleyi təsliyətil-ixvan" onun əsərləridir. Monqol dövrünün nəsr müəlliflərindən idi. Onun "Cahangüşayi Cuveyni" tarix kitabı mürəkkəb nəsr mətninə malikdir. Bu kitab Çingiz xanın hərəkatının başlaması, onun əhvalı və fəthləri haqda, xarəzmşahilərin tarixi, İsmaililərin və Həsən Səbbahın canişinlərinin qalasının fəthi barədə yazılmışdır.

Müəllif, Ələddin Ətaməlik Məhəmməd Cuveyni haqqında. Ələddin hicri-qəməri təqvimi ilə 623-cü ildə Xorasanın Cuveyn əyalətinin Azadvar şəhərində anadan olub. O Divana rəhbərlik edən Cuveyni xanədanındandır. Bu sülalə qədim zamanlardan və monqollardan öncə hakimiyyət sistemində, adətən divan sədrliyi postunu öhdələrinə götürmüş şəxslərdən ibarət olublar. Daha qədimi zamanlarda əcdadları Abbasi xəlifələrinin vəzirliyi və haciblik postunda (*hökmdarların dövlət məmurları və insanlar ilə görüşlərini əlaqələndirmək və təşkil etmək üçün məsul şəxs, dövlət məmuru*) olublar. Atası və babaları hicri-qəməri təqvimi ilə V, VI və VII əsrdə (xarəzmşah) Sultan Cəlaləddin Mənugəberdinin və Oqtay Xanın zamanında həmişə böyük rəsmi vəzifələri tutmuş divan başçıları idilər. Ətaməlik gənc yaşlarından divanda işə başladı. Xorasanın əmiri Arqunun xidmətində durdu. Onunla birgə iki dəfə monqolların paytaxtı Qaraquruma səfərə getdi. Bu səfərdə monqolların vəziyyətilə yaxından tanış oldu. Elə bu səfərlərdə monqolların fəthləri mövzusu ilə bağlı bir kitab yazmağa başladı ki, sonralar bu kitab "Tarixi Cahangüşayi Cuveyni" adı ilə tanındı. Hülakü xan hicri-qəməri təqvimi ilə

654-cü ildə Xorasana gələndə Ətaməlik ona qoşuldu və onun Ələmut ismaililərinə qarşı, habelə Bağdadda Abbasi xəlifəsinə qarşı döyüşlərində birgə oldu. O Hülakü xanın razılığını əldə edərək, Ələmut qalasındakı kitabxananın bir hissəsini məhv olmaqdan qoruya bilmişdi. Habelə o Bağdadın Hülakünün əli ilə süqut etməsi (1258) zamanı xanla birgə idi. Növbəti ildə Bağdadın, Beynün-nəhrəynin və Xuzistanın hakimi vəzifəsinə təyin edildi. Hülakü xanın ölümündən sonra Məcdül-məlik Yəzdinin məkri ilə bir müddət həbsə düşdü. Sərbəst buraxılandan sonra hicri-qəməri təqvimi ilə 681-ci ilin zihiccə ayının dördü şənbə gününün gecəsi Aran bölgəsində (indiki Azərbaycan) vəfat etdi. Onun cənazəsini Təbrizə gətirib, Çərəndab qəbirsanlığında dəfn etdilər.

Xacə Nəsirəddin Tusinin xəlifənin qətlə yetirilməsi və Abbasi xilafətinin devrilməsi ilə bağlı rolu haqda ittihamlar və açıqlamalara dr.Əminağa Məhəmmədov "Təcridül-etiqad" kitabına yazdığı tərcümə və şərhin giriş hissəsində tutarlı cavablar verib. Onun fikrincə əvvəla Hülakü xanın müşaviri olmaq onu (Abbasilərə qarşı döyüş və xəlifənin qətlə yetirilməsinə) təhrik və təşviq etmək və baş verənlərlə razı olmaq anlamına gəlmir. İkincisi budur ki, fərqli bir (dinin və) mədəniyyətin nümayəndəsi (məsələn Xacə Nəsirəddin Tusi) monqolları Bağdadın ələ keçirilməsi fikrindən daşındıra bilməsi və ya atacaqları addımlarla bağlı onlarda tərəddüd yarada bilməsi mümkün deyil (3, s.15). Üçüncüsü budur ki, "peyğəmbərin xəlifəsinin" qətli və ya "xəlifənin peyğəmbərin qohumlarından (Əhli-beytindən) olması" məsələsi önə çəkilirsə, qeyd edilməlidir ki, Xacə Nəsirəddin Tusi (isna əşəri) imamiyyədən olduğu üçün İslamda dini və ictimai mərcəiyyətin (və legitimliyin) Peyğəmbərə, onun (Əli və Fatimədən olan) övladlarına və Əhli-beytə xass olduğuna inanır. Buna əsasən Tusi Abbasi xəlifələrinin səlahiyyətlərini qeyri-legitim hesab edən şəxsdir.

Nəticə və yekun. Şübhəsiz monqolların dünyanı tutması xəyalı, xüsusilə də onların Bağdada hərbi yürüşü və İslam xilafəti mərkəzinin süqut etməsi dərin təhlillərə və araşdırmalara ehtiyacı var. Bu dəhşətli hadisənin nəticələrindən biri də yarım əsr sonra hadisə əsnasında olan Xacə Nəsirəddin Tusi kimi bir sıra şəxsiyyətlərə ittihamların və şübhələrin ünvanlandırılmasıdır. Məlumdur ki bu kimi ittihamları rədd ya isbat etmək İslam ümməti arasında münasibətlərə də təsirini göstərir və bundan sonra da gösətərəcək. Bağdadın monqolların əlinə düşməsi ilə bağlı diqqətdə saxlanılası məqam budur ki, yazıçıların bir qismi Xacə Nəsirəddin Tusini şəhərin qanlı hadisəsinin səbəbkarı və təşəbbüskarı kimi qələmə verirlər. Digər qism şəxslər Xacə Nəsirəddin Tusini İslam xilafəti və ümmətinin birliyini sarsıdan şəxs hesab edir, belə düşdünürlər ki, həmin zaman xilafət onun əli ilə aradan gedib. Lakin tarixə insaflı baxış zamanı belə aydın olur ki, Xarəzmşah sultanı ilə eyni dövrdə yaşayan Abbasi xəlifəsi də monqol xanı Çingizə məktub yazaraq, həmin məktubda onu İrana hücuma və oradakı dövləti (müsəlman Xarəzmşahları) aradan aparmağa təhrik və təşviq edirdi. Şəksiz monqolların İran coğrafiyasına hücumu Bağdada hücumun başlanğıcı idi. Həqiqətədə Xacə Nəsirəddin Tusinin bu məsələdə günahı olmayıb. Əksinə, əgər Xacə Nəsirəddin Tusinin bacarığı, tədbiri, siyasəti olmasaydı o qədər qanların tökülməsindən və dəhşətli hadisələrdən sonra İslam dünyasının bu günkü vəziyyəti necə olardı?!

Monqolların Bağdada hücumu məsələsində Xacə Nəsirəddin Tusinin rolu barədə araşdırma aparmaq üçün o dövrün hadisələrinə dair əhəmiyyətli mənbələr tədqiq edilməlidir. Buna görə Xacə Nəsirəddin Tusinin özünə məxsus traktatın mətni xüsusi önəm kəsb edir. Həqiqətən də "Bağdad hadisəsinin keyfiyyəti" traktatı çoxlu ədəbi, tarixi və lüğəvi mənbələr baxımından dəyərlidir. Lakin bununla yanaşı mətnin düzgün anlaşılması üçün onun qaranlıq məqamlarının açılması və aydınlaşdırılması da asanlıqla başa gəlmir. Buna görə ilk mərhələdə traktatın zahirdə olan çətinlikləri ilə qarşılaşırıq və onun lüğətlərini o dövrdə işlədilən məna etibarilə öyrənib tərcümə etməyə çalışdıq. Bu qədər çətinliklərə baxmayaraq (böyük əhəmiyyətinə görə) onu tədqiq edib, ərsəyə gətirdik. Qeyd edilən çətinlik qatının arxasında duran zərif tarixi məqamlar və dəyərli rəvayətlər xüsusi önəm kəsb etdiyi üçün bu tarktatı daha diqqətlə tədqiq etmişik. Bu mətnin kafi həddə araşdırılması və təhlil edilməsi üçün göstərdiyimiz çabaların səbəbi məhz belə əhəmiyyətli olması ilə bağlıdır. Buna görə burada yalnız traktatın mətninin tərcüməsi gətirilir və tam aydın olması üçün oradakı söz və bəzən də ibarələrin izahı mötərizədə verilir (8).

Tusinin traktatının mətnindən məlum və aydın olur ki, Hülakü xan Bağdadı ələ keçirəndən sonra oranı qarət etməklə bağlı fərman vermişdir. Xəlifə Mötəsim öz əlləri ilə əcdadının xəzinələrinin açarlarını ona vermişdir. Xacə Nəsirəddin Tusi yazır ki, Hülakü bir qab qızılı xəlifənin qarşısına qo-

yub, ye dedi. O dedi ki, qızıl yeyiləsi deyil. Hülakü xan dedi: Niyə bu qızılları saxladın və ordunun adamlarına vermədin? Bu dəmir qapılardan niyə silah düzəltmədin və onunla Ceyhun çayının kənarına niyə gəlib mənim qarşımı kəsmədin? Xəlifə dedi: Allahın təqdiri belə idi. Hülakü xan dedi: Elə isə sənin başına gələcək iş də Allahın təqdiridir.

Bağdad hadisəsi traktatının tərcüməsi

Alimlərin ən üstünü, bəşərin ustadı, haqqın və dinin yardımçısı mərhum Məhəmməd ibn Məhəmməd Tusunin (Allah ona rəhmət etsin) nüsxəsindən (1)

Hər iki cahanın Allahına şükürlər olsun!

Əmin-amanlıq amili olan cahanın şahı Hülakü xan mürtədlərin bölgəsinə yürüş etmək istəyərkən o qövmü məhv etmək üçün xəlifəyə elçi göndərib dedi ki, mən elin başçısıyam və elin tərkib hissəsi olmağın əlaməti budur ki, biz bir bağda oturarkən (və bir mövqedə qərarlaşarkən) bizə bir odru ilə dəstək verəsən. Xəlifə vəzirləri və naibləri ilə neçə nəfərlik ordunun göndərilməsi ilə bağlı məsləhətləşmələr apardı. Əmirlər və ordu sərkərdələri dedilər ki, o (Hülakü xan) bu bəhanəni gətirməklə istəyir ki, Xəlifənin məmləkəti və Bağdadda (müqavimət edən) ordu qalmasın və nəticədə çətinlik olmadan bu məmləkəti ələ keçirə bilsin. Bu sözlərdən sonra xəlifə ordu göndərmək fikrindən daşındı. Padşah (Hülakü xan) mürtədlərin vilayətini azad etdikdən sonra Həmədana doğru yollandı və ordu göndərmədin deyərək xəlifənin qarşısında ciddi tələblər irəli sürdü. Xəlifə qorxub, vəzirlə məsləhətləşdi. Vəzir dedi: Çoxlu nağd pul, ləl-cəvahirat, qızıl-zinət əşyaları, bahalı qablar, sürətli miniklər, nökərlər, cariyələr və (qırmızı tüklü) dəvələr hazırlayıb göndərmək və üzr istəmək lazımdır. Xəlifə razılaşdı və göstəriş verdi ki, siyahı tutulsun və hazırlansın. Xüsusi adamlardan iki üç nəfəri təyin edib dedi ki, bu malları götürüb gedib ondan üzr istəsinlər. Dəvatdar Səğir və digər böyük rəsmilər (öz aralarında) dedilər ki, bu vəzirin (Müəyyidəddin ibn Əlqəm) bir planıdır ki, bununla öz işini qabağa aparmaq, bizləri, ordu sərkərdələri və türkləri ələ vermək, beləcə bizi məhv etmək istəyir. Gərək biz özümüz malların (şəhərdən) çıxmasını gözləyək, elçiləri tutaq, malları öz adamlarımıza verərək işlərimizi yoluna qoyaq və beləcə onları problemə salaq. Xəlifə bu məsələdən agah olanda malları və elçiləri göndərməkdən daşındı və hədiyyələrdən az bir qismini göndərdi. Padşah qəzəbləndi və dedi ki, xəlifənin özü gəlməlidir. Özün gəlməsən əsas üç adamın olan vəzirin, Dəvatdar Səğir və Süleymanşahdan birini göndər. Xəlifə heç birini etməyib üzrlü olduğunu bildirdi. Padşahın qəzəbi daha da artdı və Bağdada sarı hərəkət etmək fikrinə düşdü. Bir neçə dəfə (elçi) Dərnəki (gərginliyi azaltmaq üçün) get-gəl etdi. Bir neçə dəfə də İbnül-Cövzi (elçi kimi) ezam edildi. Heç birinin faydası olmadı. Padşah (hicri-qəməri təqvimi ilə) altı yüz əlli beşinci ilin şəvval ayında Həmədan hüdudlarından hərəkətə başladı. (Hülakü xanın sərkərdələri) Suğancaq Noyon və Baycu Noyon (hamıdan öncə) sağ tərəfdən hərəkət edərək Ərbildən, Daquq və Şahrzur dağlarının sağından adladılar. Kit Buğa Noyon və Ankiya Noyon isə soldan (yəni) Tikrit və Bayat tərəfdən hərəkət etdilər. Şah isə ordunun mərkəzində Kermanşah və Halvan yolu ilə yola düşdülər. Davatdar Əsğər də kiçik bir ordu ilə Bağdaddan çıxıb, Bəqubə (bölgəsi) ilə Baçsaray (bölgəsi) arasında Diyala çayı kənarında düşərgə saldı. Padşah Baycu Noyona göstəriş verdi ki, Dəclə çayını keçib qərb tərəfdən Bağdada girsin. Padşahın özü Halvan bölgəsinə çatdı. Ağır yüklərini orada qoyub yüngül miniklərlə keçdilər. (Xəlifənin) Yəzək adlı (komandirlərindən) biri Aybək Hələbinin əlinə düşdü. Onu tutub Hülakü xanın hüzuruna gətirdilər. O doğru danışacağına söz verdi və buna görə ona aman verdilər. Yəzək monqollara qoşuldu. Onun yanında (vaxtilə monqollara məğlub olmuş) Xarəzmşahilərin qalıqlarından (bır miqdar hərbi qüvvələr) var idi. O xəlifənin ordusuna məktub yazdı ki, bizlə siz eyniyik, mən artıq onun təbəəliyini qəbul edib vassalı oldum. Onlar mənimlə yaxşı rəftar edir. Ona görə sizin də canınıza yazığınız gəlsin. Siz də onun vassalı olun ki xilas ola biləsiz. O (Məmlukilərə tabe olan Hələbin əmiri) Qarasanqura da (oxşar məktubdan) yazdı. Məktubun cavabı gəldi: Hülakü xan kimdir ki, Abbasilərin canına qəsd edə bilsin?! Çünki bu Abbasi dövləti onun kimilərini çox görüb. Əgər həqiqətən də ona sülh lazımdırsa bura qədər niyə gəlir və xəlifənin məmləkətini niyə xarabazarlığa çevirir?! İndi əgər (Hülakü xan) Həmədana qayıtsa və üzr istəsə biz də Dəvatdar Əsğəri xəlifənin yanına xahiş edən bir vasitəçi kimi göndərərik ki, sülhü qəbul etsin. Bu məktub padşaha çatanda gülüb dedi: Bəli Allah nə istəsə odur və hökm onun hökmüdür. Suğancaq Noyon və Baycu Noyon Dəcləni keçəndə (Bağdad ordusu) elə bildilər ki, o tərəfdən hücuma keçən Hülakü xandır. Dəvatdar və ordusu bunu görüb Bə-

qubədan qayıdıb, Bağdad ətrafında Dəcləni keçdi və əl-Ənbar hüdudlarında (monqolların ordusunun önündə gedən) Suğancaq Noyonla üz-üzə gəldi. (Bağdad ordusu) Suğancaq ordusunu məğlubiyyətə uğratdı. (Məğlub olmuş ordu) Baycu Noyonla qarşılaşanda onları geri qaytardı və Dəvatdarın qüvvələrinin üstünə (yenidən) hücum çəkdib onu məğlubiyyətə uğratdılar. Çoxlu insanları öldürdülər. Onlar məğlub olaraq Bağdada qayıtdılar. Padşah da Diyala bölgəsindən keçdi. Onlar minib Bağdada qədər gəlmək üçün gəmilər saxlamamışdılar (və hamısını məhv etmişdilər). Padşah Buğa Timuru da qərb tərəfdən göndərdi. Padşah (hicri-qəməri təqvimi ilə) altı yüz əlli altıncı ilin məhərrəm ayının ortalarında Bağdadın darvazasına çatdı. Göstəriş verdi ki, şəhərin ətrafını hasarlasınlar ki, monqollar buna çəpər deyirlər. Bir gecə-gündüz ərzində padşahın ordusu bu tərəfdən, Buğa Timur, Suğancaq Noyon və Baycu Noyon isə qərb tərəfdən hündür hasar qaldırdılar. Divarın şəhərə sarı olan içəri tərəfindən böyük xəndək qazdılar. Mancanaqlar yerləşdirib, döyüş hazırlığı vəziyyətinə gəldilər. Xəlifə divanın sədrini və İbn-Darbusu az bir hədiyyələrlə göndərdi. (Xəlifə) deyirdi ki, əgər biz hədiyyələri çox göndərmiş olsaq, deyərlər ki, bizdən qorxurlar. Ona görə az hədiyyə göndərmək lazımdır. Padşah dedi: Niyə Dəvatdar və ya Süleymanşah gəlməyib? Xəlifə cavab yazıb bildirdi: Padşah buyurub ki, vəzir, Dəvatdar və ya Süleymanşahdan biri gəlsin. Mən sözümə əməl etdim. Ən böyük məqam olan vəziri göndərdim. Padşah da sözünə əməl edib, onların hamısını tələb etməsin. Padşah (məktubun cavabında) dedi: Mən bunu Həmədanda olanda demişdim, amma indi Bağdadda olduğum halda necə biri ilə kifayətlənə bilərəm? Ona görə hər üçünü göndərməlisən. Nəhayət döyüş başladı və Padşah şəxsən özü şəhərin şərq tərəfindən (Bağdad hasarının) Əcəm bürcü istiqamətində hərəkətə keçdi. Kit-Buğanın ordusu qövsvari düzülərək döyüşürdülər. Bulğay və Sabutay şəhərin sağ istiqamətində idilər. Buğa Timur Muqbilə (deyilən) bağın yerləşdiyi qərb istiqamətində idi. Suğancaq Noyon və Baycu Noyon Əzudi xəstəxanasının yerləşdiyi istiqamətdən döyüşə başladılar. (Hicri qəməri təqvimi ilə) Altı yüz əlli altıncı ilin Məhərrəm ayının 22-sindən başlayaraq altı gecə-gündüz döyüşdülər. Padşah göstəriş verdi və belə elan yazdılar ki, seyidlər, alimlər, keşişlər, şeyxlər və bizimlə döyüşməyən insanlara tərəfimizdən aman veriləcəkdir. Elanı oxa bağlayıb, altı tərəfdən şəhərə atdılar. Nəyahət gecə-gündüz şiddətli döyüşlərin ardından məhərrəm ayının iyirmi səkkizində gün çıxan zaman ordu divarı aşdı. Birinci əcəm bürcünü ələ keçirdilər. İstehkamların iki tərəfi ilə irəliləyir, camaatı sıxışdırırdılar. Zöhr namazına qədər, bütün qala və istehkam divarlarının üstü monqollar tərəfindən bağdadlılardan alınıb ələ keçirilmişdi. Padşah (bundan öncə şəhərin mühasirəyə alınması və kimsənin qaça bilməməsi üçün) divarın qaldırılması göstərişini verəndə demişdi ki, Bağdadın (yanından axan Dəclə çayının) yuxarı və aşağı tərəfində gəmilər saxlanılsın, körpü bağlanılsın, oralara gözətçilər qoyulsun, mancanaqlar yerləşdirilsin və neft (kimi yandırıcı maddələr) hazırlansın. Müharibə şiddətləndikdə Dəvatdar gəmi ilə üzü aşağı istiqamətdə qaçmaq istədi. Bu məlumat monqollara çatdıqda mancanaq və oxlarla onu hədəfə aldılar və o geri qayıtdı. Onun üç gəmisinin qarşısını alıb, adamlarını öldürdülər və silahlarını da müsadirə etdilər. Gəmidə olan Ələvilərin nəqibini (və ya seyidlərin Abbasi sarayında təmsilçisini) də öldürdülər. Şəhərin qala divarları ələ keçəndən sonra padşah göstəriş verdi ki, şəhər camaatı özləri divarları dağıtsınlar. Elçilər get-gələ başladılar. Padşah göstəriş verdi ki, Dəvatdar və Süleymanşah (onun hüzuruna gəlmək üçün) eşiyə çıxsınlar. Xəlifə əgər istəsə gəlsin, əgər istəməsə gəlməsin. Xəlifə ortancıl oğlunu Dəvatdar və Süleymanşahla birgə (onun hüzuruna) göndərdi. Dəvatdar (onun hüzuruna getməyib) geri addım atdı və Süleymanşaha dedi ki, (təslim olmayaq çünki) bizə çoxlu ordu qoşulmaqdadır. Onu şəhərə göndərdi ki tərəfdarlarını (müdafiə üçün) toplasın. Amma növbəti gün onun işi bitdi. Şəhərin camaatı Şərəfuddin Mərağini və Şəhabəddin Zənganinin göndərib aman istədilər. Bundan sonra xəlifə işlərin gətirmədiyini görüb, şəhərdən çıxmaq üçün icazə istədi. O səfər ayının dördü şəhərdən çıxıb padşahla görüşdü. Onu, oğlunu, şeyxlər, seyidlər və imamlardan olan yaxınları ilə birgə (şəhərin) Kəlvaz darvazasında (ev dustağı olaraq) yerləşdirdilər. Padşah sonra göstəriş verdi və şəhəri qarət etdilər. Padşah xəlifənin evinə baxış keçirməyə gedib hər tərəfə baxdı. Xəlifəni ehzar etdirdi. Xəlifə dedi ki pişkeşləri versinlər. Padşah gətirilənlərin hamısını özəl adamlarına, sərkərdələrinə, ordu komandirləri və hüzzara verdi. Padşah xəlifənin qarşısına bir qab qızıl qoyub dedi: Bunu ye! Dedi: Yeyə bilmərəm. Padşah dedi: Bəs niyə orduya verməyib saxladın? Bu dəmir qapılardan silah düzəldib niyə Ceyhun çayının kənarına gəlmədin ki mən oranı keçib bura qədər gəlməyim?! Xəlifə dedi: Bu Allahın təqdiridir. Padşah dedi: Sənin başına gələcək olan da Allahın təqdiridir. Gecə qayıtdı. O zaman xəlifəyə dedi ki o və oğulları ilə olan qadınları çölə çıxart-

sın. Xəlifənin sarayına getdilər. 700 qadın və 1300 xidmətçi var idi. Digərlərini yola saldılar. Qarət başa çatdıqdan sonra, bir həftə sonra şəhər əhlinə aman verdilər və qənimətləri topladılar. Səfər ayının on dördü padşah şəhərin qapısından çıxıb gedəndə xəlifəni hüzuruna çağırtdırdı. Xəlifəni onun yanına gətirdilər. Ortancıl oğlunu da beş-altı xidmətçi ilə onun ardınca gətirdilər. Elə o gün olduğu yerdə onun və ortancıl oğlunun ömrü bitdi. Növbəti gün Kəlvaz darvazasında kiçik oğlunun və onunla birgə olanların ömrü bitdi. Növbəti gün padşah oradan köç edib getdi. Vəziri, Divanın sədrini və İbn-Darbusu Bağdada göndərdi. (Elə sabiq) Vəziri vəzirliyə, (sabiq) divan sədrini (Fəxrəddin Damğanini) divan sədri vəzifəsinə, İbn-Darbusu sənətçilərin işinə nazir şəxs, Əli Bahadırı isə (Bağdadda) polis rəisi təyin etdi. Göstəriş verdi ki, Bağdadı təmir etsinlər, ölmüş insan və heyvanları yığışdırsınlar, bazarları qaydasına salsınlar. Padşah qalib və müzəffər şəkildə Siyahkuh bölgəsinə gəldi. Buğa-Timuru Hillə və Vasit şəhərinə başçı təyin etdi. Hillə camaatı bundan öncə (Seyyid ibn Tavusun vasitəçiliyi ilə qan tökülmədən monqolların vassallığını qəbul edib) onların eli olmuşdular. Buğa Timur Hilləyə çatanda oranın əhalisini (üsyana qalxıb qalxmayacaqları ilə bağlı) yoxladı və sonra Vasitə getdi. Orada bir həftə qətllər və qarətlər həyata keçirdib qayıtdı. Buğa Timur sonra Şuştərə yollandı. Şərəfuddin ibn əl-Cövzini özü ilə apardı ki, şəhəri (razı salıb döyüşsüz öz vassalı və) eli etsin. Oranın ordusunun komandirlərinin və türklərin bir qismi qaçdılar. Bəziləri öldürüldülər bəzisi ilə təbəəliyi qəbul etdilər. Kufə və Bəsrə isə monqol ordusu getməmiş onların eli oldu.

ƏDƏBİYYAT

1. علاءالدين عطاملک محمد جُوينی، تاريخ جَهانگُشای جُوينی (623-681 هـ ق)، به تصحيح محمّد قزوينی، انتشار در سال 1937

2. Məlikov, Ə. نصیرالدین طوسی «کیفیت واقعهٔ بغداد» متن و شرح رسالهٔ // Metafizika jurnalı (ISSN:2616-6879), 2024, №1, səh.148-185 (http://dx.doi.org/10.33864/2617-751X.2024.v7.i1.148-185)

3. Tusi, X. N. (2015). Təcrid əl-etiqad. (Tərcümə və şərh: Məmmədov, E.M.), Araz nəşriyyatı, Bakı.

4. Məlikov, Ə. (2021). Nəsirəddin Tusinin sosial görüşləri. *Elm və Həyat jurnalı №4* (474), səh. 79-82. (http://dx.doi.org/10.13140/RG.2.2.13784.62726)

5. Məlikov, Ə. (2020). *Risalə fi fəziləti Əmir əl-Möminin Əli əleyhissəlam (Nəsirəddin Tusi).* ResearchGate elmi bazası, səh.1-4 (http://dx.doi.org/10.13140/RG.2.2.30898.63685)

6. Məlikov, Ə. (2020). *Risalə dər təvəlla və təbərra. (Nəsirəddin Tusi).* ResearchGate elmi bazası, səh.1-6 (http://dx.doi.org/10.13140/RG.2.2.19534.69441)

7. Məlikov, Ə. (2022). *Nəsirəddin Tusinin "Əsasül-iqtibas" əsəri əsasında məntiqə dair terminlər lüğəti*. Bakı: Elm nəşriyyatı,1-36 səh. (ISBN 978-9952-556-44-5), (http://dx.doi.org/10.13140/RG.2.2.20122.72640)

8. محمّد تقی مدرّس رضوی، العلّامة الخواجة نصيرالدِّين اَلطُّوسِي حياته و آثاره. تعريب: علي هاشم الأسدي، طبع اولی: 1419 ه.ق، الطبع و النشر التابعة للآستان الرّضویّ المقدّسة. 4-104-444-964 ISBN)».

АЛАДДИН МАЛИКОВ

Доцент Азербайджанского института теологии,
Научный сотрудник издательства "AcademyGate Publishing"

ПЕРЕВОД И КРАТКОЕ ОПИСАНИЕ ТРАКТАТА ХАДЖИ НАСИР АД-ДИНА ТУСИ «КАЧЕСТВО БАГДАДСКОГО СОБЫТИЯ»

Хаджа Насир ад-Дин Туси был не только выдающимся учёным и теоретиком, но и видным политическим деятелем. Он завоевал доверие и уважение Хулагу-хана и его сына Абакахана, что позволило ему обрести значительное влияние и авторитет при дворе. Туси также сыграл важную роль в определении как внутренней, так и внешней политики государства Илханидов. Нападение монголов на исламские земли, особенно на Багдад - центр исламского халифата, стало значимым событием с серьезными последствиями. Среди последствий - падение

Багдада, уничтожение династии Аббасидов, убийство халифа и масштабные разрушения в регионе.

Цель данной статьи - кратко осветить обвинения, связанные с этими событиями, и опровергнуть их, основываясь на древнейших исторических источниках. Поэтому на первом этапе мы решили перевести краткий трактат Хаджи Насир ад-Дина Туси (авторства самого Туси) под названием «О сущности Багдадского события», который содержится в книге «Джахангушайи Джувейни». Несмотря на его небольшой объем, трактат охватывает все важные моменты, начиная с принятия Хулагу-ханом решения о битве и заканчивая захватом Багдада и анализом внутренних причин падения Аббасидского халифата. Важность этого трактата заключается в том, что он был написан непосредственным участником и свидетелем этих событий. Во-первых, сам Туси был очевидцем Багдадского события. Во-вторых, в этом труде Туси исследует природу монгольского похода на Багдад, не упоминая о своем возможном участии в этих действиях. В-третьих, если бы Туси играл какую-либо роль в этих событиях или стремился бы отомстить приверженцам иных убеждений, он хотя бы намекнул на свою роль или выразил одобрение произошедшему. Однако, как можно увидеть из текста трактата, таких указаний там не содержится.

Ключевые слова: Насир ад-Дин Туси, падение Багдада, Хулагу-хан, последний Аббасидский халиф, аль-Муста’сим.

ALADDIN MALIKOV
Associate professor in Theology Institute of Azerbaijan,
Scientific researcher in the “AcademyGate Publishing”

TRANSLATİON AND BRİEF DESCRİPTİON OF KHWAJA NASİR AL-DİN TUSİ'S TREATİSE "ON THE NATURE OF THE BAGHDAD EVENT"

Khwaja Nasir al-Din Tusi was both a prominent scholar and theorist, as well as a distinguished political figure. He gained the favor and respect of Hulagu Khan and his son Abaqa Khan, acquiring significant influence and prestige within the court. Tusi also played a crucial role in shaping both the internal and external policies of the Ilkhanate state. The Mongol invasion of Islamic territories, particularly their attack on Baghdad, the center of the Islamic Caliphate, had profound consequences. The fall of Baghdad, the end of the Abbasid dynasty, the execution of the caliph, and widespread destruction across the region are considered some of the key outcomes of this invasion.

The aim of this article is to briefly examine the accusations related to these events and refute them based on the oldest historical sources. To this end, we have decided to begin by translating the short treatise "On the Nature of the Baghdad Event," authored by Khwaja Nasir al-Din Tusi himself, which is found in the work Jahangusha-yi Juwayni. Although the treatise is brief, it addresses all key aspects, from Hulagu Khan's decision to engage in battle, to the capture of Baghdad, and an analysis of the internal factors that contributed to the collapse of the Abbasid Caliphate. The importance of this treatise lies in the fact that it was written by a direct participant and witness to the events in question. Firstly, Nasir al-Din Tusi was an eyewitness to the Baghdad events. Secondly, in this work, Tusi analyzes the nature of the Mongol campaign against Baghdad without mentioning any personal involvement or role in these actions. Thirdly, if Tusi had played a role in the event or harbored intentions of revenge against other ideological groups, he would have hinted at or demonstrated his role or approval of the events. However, such claims are entirely absent from this treatise.

Keywords: Nasir al-Din Tusi, fall of Baghdad, Hulagu Khan, last Abbasid caliph, al-Mustasim.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Anar İsgəndərov.

UOT 94(479.24)

BƏXTİYAR ƏHMƏDOV
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
emlak2017@mail.ru

KEÇMİŞ ERMƏNİSTAN SSR-in BASARKEÇƏR RAYONUNUN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ VƏ TARİXİ COĞRAFİYASI (1930-1988-ci illər)

DOI: https://doi.org/10.36719/2708-065X/107/282-289

Məqalədə ölkəmizin Rusiya tərəfindən təkrar işğalından sonra – XX əsrin 20-ci illərində yenidən inzibati-ərazi bölgüsünə məruz qalması, bölgə və rayonlarda yaşayış məskənlərinin tabeliyini dəyişdirilməsindən, 1930-cu ildə İrəvan quberniyasının ləğvindən, bu ərazidə 3 yeni rayonun – Basarkeçər, Yeni Bəyazid və Martuni rayonlarının yaradılmasından, həmin rayonların və onlara daxil olan kəndlərin tarixi coğafiyasının yenidən araşdırılmasından bəhs olunur.

Açar sözlər: Cənubi Qafqaz, Göyçə mahalı, Basarkeçər, Yeni Bəyazid, Qızılvəng, Qırxbulaq.

Giriş. SSRİ-nin 1926-cı il yanvarın 1-ə olan ərazi inzibati bölgüsündə ZSFSR-in tərkibinə daxil olan Ermənistan SSR-nin inzibati cəhətdən 8 qəzadan, 936 nahiyədən və 827 kənd sovetindən ibarət olduğu bildirilirdi [8, c.21]. Həmin qəzalardan biri də Göyçə gölü hövzəsini əhatə edən Yeni Bəyazid qəzası idi.

XX əsrin 20-ci illərinin sonunda Cənubi Qafqazda inzibati-ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi. Həmin dəyişikliklərin gedişində qəzaların ləğv edilməsi lazım bilindi və rayonlaşdırmanın əsasında üç dərəcəli bölgü – dairə, rayon, kənd sovetləri yaradıldı.

1930-cu ildə "İrəvan quberniyası" inzibati bölgüsü ləğv olundu. Ermənistan SSR-nin ərazisində 5 dairə təşkil olundu: Zəngəzur, Leninakan, Lori, Sevan və Yerevan. Göyçə mahalına (Yeni Bəyazid qəzasına) daxil olan torpaqlar Sevan dairəsinin tərkibinə daxil idi. Bu ərazilərdə 3 rayon – Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları yaradıldı.

1930-cu il sentyabrın 9-da Göyçə mahalında yaradılmış rayonlardan biri də Basarkeçər rayonu idi. Toponim qıpçaq mənşəli bazar//basar etnoniminə qeyri-qəti gələcək zamanda işlənən "keçər" sözünün qoşulmasından əmələ gəlmişdir, «Bazar//basar tayfasının keçdiyi, getdiyi yer» mənasını bildirir: «...bazar sözü mürəkkəb toponimlərin tərkibində tayfa adı kimi işləndikdə toponimik adın bir komponenti... yerində işlənir» [2, s.122]. Ümumi sahəsi təxminən 1120 kv km olan rayon bir tərəfdən Göyçə gölü, Ermənistanın Krasnoselsk və Martuni rayonları, digər tərəfdən isə Azərbaycan SSR-in Kəlbəcər və Gədəbəy rayonları ilə həmsərhəd idi. Rayonun mərkəzi Basarkeçər şəhər tipli qəsəbə idi.

1948-ci ildə nəşr olunmuş Ermənistan SSR-in inzibati ərazi bölgüsünə aid kitabda Basarkeçər rayonu 19 kənd sovetində birləmiş 38 kənddən ibarət olmuşdur. **Kənd sovetləri mərkəzinin adları 1. Akunk (Qırxbulaq)** – Akunk (Qırxbulaq); **2. Basarkeçər** – Basarkeçər kəndi; **3. Daşkənd** – Daşkənd kəndi; **4. Sultanəli qışlağı (Canəhməd)** – Canəhməd kəndi, Ağyoxuş kəndi (Zod sovxozu), İnəkdağ kəndi; **5. Zərkənd (Zərzibil)** – Zərkənd kəndi, Azad kəndi (Ağkilsə kəndi); **6. Zod** – Zod kəndi; **7. Qaraiman (Oğruca)** – Qaraiman kəndi; **8. Gödəkbulaq (Qarcaxbyur)** – Gödəkbulaq (Qarcaxbyur kəndi); **9. Qayabaşı** – Qayabaşı kəndi, Qoşabulaq kəndi, Sarıyaqub kəndi; **10. Kərkibaş** – Kərkibaşı kəndi, Qamışlı (Qanlı) kəndi; **11. Böyük Məzrə** – Böyük Məzrə kəndi; **12. Nərimanlı (Hüseynquluağalı)** – Nərimanlı kəndi, Qaraqoyunlu (Kiçik Qaraqoyunlu) kəndi, Əzizli (Böyük Qaraqoyunlu) kəndi; **13. Aşağı Şorca** – Aşağı Şorca kəndi, Yuxarı Şorca kəndi; **14. Pəmbək** – Pəmbək kəndi, Babacan kəndi, Dərə kəndi; **15. Kiçik Məzrə** – Kiçik Məzrə kəndi, Norakert kəndi (Təzəkənd), Kəsəmən kəndi; **16. Zovak (Aşağı Zağalı)** – Zovak (Aşağı Zağalı); **17. Çaxırlı** – Çaxırlu kəndi, Tüstülü kəndi, Subatan kəndi; **18. Çiçəkli (Qızılvəng)** – Çiçəkli kəndi, Yuxarı Zağalı kəndi,

Yarpızlı kəndi; **19. Şişqaya** – Şişqaya kəndi, Göysu kəndi, Güney (Satanaxaç) kəndi.

Basarkeçər rayonunun Ağbulaq, Ardanış, Toxluca, Cil və Şorca kəndləri 1937-ci il dekabrın 31-də yaradılmış Krasnoselsk rayonuna verilmişdir.

1988-ci ildə nəşr olunmuş Ermənistan SSR-in inzibati ərazi bölgüsünə aid kitabda Basarkeçər (Vardenis) rayonunun ərazisi 1151 kv.km, 14 kənd sovetində birləşmiş 37 yaşayış məntəqəsindən ibarət olmuşdur. Əhalisinin sayı 60,4 min nəfər, o cümlədən 13,3 min nəfər şəhər əhalisi, 47,1 min nəfər isə kənd əhalisi idi [6].

Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 11 iyun 1969-cu il fərtmanı ilə Basarkeçər rayonunun adı dəyişdirilərək Vardenis adlandırılmışdır [1, s.275].

Kənd soveti mərkəzlərinin adları: 1. Akunk (Qırxbulaq) – Akunk (Qırxbulaq); **2. Günəşli (Canəhməd)** – Günəşli (Canəhməd), Ağyoxuş, Yenikənd (İnəkdağı), Sovetkənd (Qaraiman); **3. Daşkənd** – Daşkənd, Yuxarı Şorca, Aşağı Şorca; **4. Zod** – Zod, Azad (Ağkilsə), Zərkənd (Zərzibil); **5. Qarcaxbyur (Gödəkbulaq)** – Qarcaxbyur (Gödəkbulaq); **6. Qayabaşı** – Qayabaşı, Qoşabulaq, Sarıyaqub; **7. Makenis (Qızılvəng)** – Makenis (Qızılvəng), Axpradzor (Yuxarı Zağalı), Lcavan (Yarpızlı); **8. Böyük Məzrə** – Böyük Məzrə; **9. Nərimanlı** – Nərimanlı, Əzizli (Qaraqoyunlu); **10. Pəmbək** – Pəmbək, Dərə, Qızılkənd (Babacan); **11. Kiçik Məzrə** – Kiçik Məzrə, Bahar (Kəsəmən), Norakert (Təzəkənd); **12. Sovetakert (Çaxırlı)** – Sovetakert (Çaxırlı), Lusakunk (Tüstülü), Subatan; **13. Zovak (Aşağı Zağalı)** – Zovak (Aşağı Zağalı), Torfavan (Qanlı), Şəfəq (Kərkibaş); **14. Şişqaya** – Şişqaya, Göysu, Güney (Sədənəxaç).

22. Rzayev A. Azərbaycan-Böyük Britaniya münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı, "Poliart", 2017, 904 s. – s.399-422.
23. Аббасбейли А.Н. Азербайджан в системе международных и региональных организаций. Баку, «Азернешр», 1999, 256 с.
24. Адыгезалов З.Н. Политические аспекты азербайджано-британских отношений. Вестник КазНУ, 2011, №1-2 (51-52), с. 150-154.
25. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, «Известия», 2003, 712 с.
26. Алиев Н.А. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Баку, «Letterpress», 2010, 244 с.
27. Алиева М.М. Азербайджано-Британские отношения на современном этапе: становление, развитие и перспективы. Дис. канд. полит. наук. Баку, 2006, 146 с.
28. Алиева М.М. Азербайджано-британские отношения на современном этапе. Баку, «MBM», 2013, 272 с.
29. Гёзалова Н.Р. Место Азербайджана в восточной политике Великобритании в первой трети XIX века. Баку, "Elm və təhsil", 2017, 357 с.
30. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, «Изд-во Бакинского университета», 1991, 264 с.
31. Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании (1991-2022 гг.). Баку, «Aspoliqraf», 2023, 312 с.
32. Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века. Баку, «Təhsil», 2008, 128 с.

БАЛАМИРЗА МАМЕДЛИ
Докторант Бакинского Государственного Университета

ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ВЕЛИКОБРИТАНИЕЙ В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

Анализ взаимоотношений Азербайджанской Республики и Великобритании в контексте отечественной (национальной) историографии имеет большое научное и политическое значение. Так как, Соединенное Королевство Великобритании и Северной Ирландии играет важную роль в современной системе международных отношений как одна из великих держав мира. Великобритания, которую когда-то называли «промышленной мастерской мира», и сегодня является страной с сильной экономикой, занимая 6-е место в мире и 2-е место в Европе (после Германии) по объему ВВП (3,5 трлн долларов в 2024 году). Великобритания, являющаяся одним из основных членов влиятельных организаций (таких как НАТО, Совет Европы, Совет Безопасности ООН, G7), также обладает мощным военно-политическим потенциалом. Так как, Великобритания входит в число 9 стран, обладающих ядерным оружием в мире, и занимает первое место в Европе по объему ежегодных военных расходов. Установление и развитие успешных взаимоотношений с таким государством, несомненно, важно для Азербайджана. Среди факторов, определяющих важность дружеских отношений с Великобританией, можно назвать формирование позитивного мнения об Азербайджане путем его надлежащего представления мировому сообществу, открытие благоприятных возможностей для интеграции нашей страны в престижные международные организации и передовые структуры Европы, обеспечение мира и безопасности на Южном Кавказе и в Каспийском регионе, поддержание традиций демократии и парламентаризма и т.д.

В статье впервые в контексте отечественной историографии изучены современные азербайджано-британские отношения, что является не только научным новшеством, но и крайне важно с точки зрения более точного отслеживания динамики исторического развития отношений двух стран и определения их нынешних и будущих перспектив.

Ключевые слова: Азербайджанская Республика, Великобритания, внешняя политика, международные отношения, нефть, отечественная историография.

BALAMIRZA MAMMADLI
PhD student at Baku State University

RELATIONS BETWEEN THE AZERBAIJAN REPUBLIC AND GREAT BRITAIN IN DOMESTIC HISTORIOGRAPHY

The analysis of the relations between Azerbaijan Republic and Great Britain in the context of the domestic (national) historiography is of great scientific and political importance. So, the United Kingdom of Great Britain and Northern Ireland has an important role in the modern international relations system as one of the great powers in the world. Great Britain, which was once called the "industrial workshop of the world", is still today a country with a strong economy, ranking 6th in the world and 2nd in Europe (after Germany) in terms of GDP ($3.5 trillion in 2024). Great Britain, which is one of the main members of the influential organizations (such as NATO, Council of Europe, UN Security Council, G7) also has a powerful military and political potential. So, UK is one of the 9 countries with nuclear weapons in the world and ranks first in Europe in terms of annual military spending. Establishing and developing successful mutual relations with such a state is undoubtedly vitally important for Azerbaijan. Among the factors determining the importance of our country's friendly relations with Great Britain, forming a positive opinion about Azerbaijan by properly introducing it to the world community, opening favorable opportunities for the integration of our country into prestigious international organizations, advanced structures of Europe, the provision of peace and security in the South Caucasus and the Caspian region, the supporting of the traditions of democracy and parliamentarism, the development of Azerbaijan's rich hydrocarbon resources can be listed.

In the article, the study of the contemporary Azerbaijani-British relations for the first time in the context of domestic historiography is not only a scientific innovation, but it is also extremely important from the point of view of more precisely following the historical development dynamics of the relations between the two countries and determining its current and future prospects.

Keywords: Azerbaijan Republic, Great Britain, foreign policy, international relations, oil, domestic historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçi: AMEA-nın həqiqi üzvü Yaqub Mahmudov.

UOT 94(479.24); UOT 371.39

MƏTANƏT MƏMMƏDOVA
Bakı Dövlət Universitetinin dosenti
metanet.memmedova.61@mail.ru

AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ SOYQIRIM MƏSƏLƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/307-313

Tarix baş verənləri bir də təkrar etməyə məcburdur. Çünki ona qulaq asan olmur.

Lorens Piter.

Soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, onların insan hüquqlarının kütləvi surətdə pozulması tarixi fakt kimi danılmazdır. Təcavüzkar erməni şovinizminin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi mənfur soyqırım siyasəti tarix dərsliklərimizdə bu və ya digər dərəcədə yer almaqdadır. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa və inkişafı, Vətən tarixinin ümumtəhsil məktəblərimizdə müasir metodoloji yanaşmalar əsasında öyrənilməsi gənc nəsillərə çatdırılması üçün əlverişli zəmin yaratdı. Ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli xüsusi fərman imzalamışdır. Soyqırım məsələsi 2012-ci ildə nəşr edilən V siniflər üçün "Azərbaycan tarixi" dərsliyində, 2014-cü ildə nəşr edilən 8-ci siniflər üçün "Qarabağ tarixi" dərsliyində bu və ya digər dərəcədə öz əksini tapmışdır. 2016-cı ildə nəşr edilən IX siniflər üçün "Azərbaycan tarixi" dərsliyində yetəri qədər tutarlı faktlarla 1918-ci il Mart soyqırımı haqqında məlumat yer almış, 2018-ci ildə nəşr edilən XI siniflər üçün "Azərbaycan tarixi"dərsliyində mart hadisələri "Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti" adlı mövzuda geniş şəkildə qələmə alınmışdır. 2021-ci ildə çapdan çıxan IX siniflər üçün "Zəfər tarixi" kursu üzrə dərs vəsaitində tarixi keçmişlə qarşılıqlı əlaqə formasında İkinci Qarabağ müharibəsindəki tarixi qələbəmiz işıqlandırılmış, Mart Soyqırımı haqqında məlumat verilmişdir. Bu tarixi hadisələrin tədrisi yetişən gənc nəsilin qan yaddaşına hoparaq, onlara öz milli tarixini öyrənmək, sevdiyi Vətən, torpaq uğrunda lazım gələrsə ölmək mənəviyyatını öyrədir. Gənclərimizdə milli mənlik şüurunu daha da inkişaf etdirərək, 44 günlük Vətən müharibəsində olduğu kimi qəhrəmanlıqlar göstərməyə sövq edir.

Açar sözlər: soyqırım, şovinizm, faciə, miilli münaqişə, tarixin tədrisi.

Giriş. XIX əsrin I yarısında Qarabağa və Zəngəzura İran və Türkiyədən 10 minlərlə erməni ailəsinin köçürülməsi, İrəvan, Naxçıvan və digər tarixi torpaqlarımızda məskunlaşdırılması, 1828-1836-cı illərdə Azərbaycan əhalisinin etnik tərkibinin məqsədli şəkildə ermənilərin xeyrinə dəyişməsinə səbəb oldu. 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, onların insan hüquqlarının kütləvi surətdə pozulması, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən geniş miqyaslı müharibə və onun bugün də davam edən acı nəticələri-bütün bunlar təcavüzkar erməni şovinizminin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi mənfur siyasətin qanlı səhifələridir.

1918-ci il Mart Soyqırımı. Qan yaddaşının təməlinə şovinizm hakim olan ermənilərin törətdiyi qanlı faciələrdən biri, miqyası və qəddarlığı ilə seçilən 1918-ci ilin 30 mart - 2 aprel tarixində Bakı şəhərində eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin yalnız milli mənsubiyyətinə görə azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətləri olmuşdur. Ermənipərəst Bakı Soveti qurumu müsəlmanları sosializm, bərabərlik və xalqların öz müqəddəratını azad surətdə təyini prinsipləri ilə arxayınlaşdıraraq əslində aborigen qafqazlılar, xüsusən də Azərbaycan türkləri üçün qorxunc bir tələ hazırlayırdılar. Bakıda qırğınlar törədərək bu bölgəni işğal altına almaq üçün ermənilər həm də ideoloji-siyasi zəmin hazırlayırdılar. Hacı Zeynalabdin Tağıyevin əsgəri hissədə ehtiyatsızlıq nəticə-

sində həlak olan oğlunu dəfn etmək üçün Lənkərandan Bakıya gələn müsəlman «Evelina» gəmisinin tərk-silah edilməsi və onların rəhbəri general Talışxanovun həbs edilməsi hadisələrin gedişini sürətləndirdi. "Evelina" münaqişəsi bəhanə rolunu oynadı. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə rus milli şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər Lənkəranda olan hərbi dəstələri ilə birlikdə Muğandakı molokan kəndlərini məhv etmək barədə tapşırıq almışlar [4,s.272]. Müsəlman camaat məscidlərə yığışaraq general Talışxanovun buraxılmasını, müsəlman hərbçilərin silahlarının qaytarılmasını tələb etməyə başladılar. 1918-ci il martın 30-da səhər tezdən erməni bolşevik birləşmələri Bakını gəmilərdən yaylım atəşinə tutmuş, silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətmişlər. Bolşevik-daşnak qüvvələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və digər məhəllələrə hücum etdilər. Üç gün ərzində Bakıda 30 min insan qətlə yetirilmişdir. Erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmış, Təzə-Pir məscidi istiqamətindən başlayaraq silahsız müsəlmanlara divan tutub, şəhəri darmadağın etdilər. Müsəlmanların mədəniyyət mərkəzinin yerləşdiyi «İsmailiyyə» binasını, müsəlman qəzetlərinin çap olundugu «Kaspi» mətbəəsini, "Açıq söz" qəzeti redaksiyasını və başqa əhəmiyyətli binaları yandırıb darmadağın etdilər. Martın 30-da Nərimanovun evində S.Şaumyanla və İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılacağı vədinə baxmayaraq, bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi.

Bakı şəhərində müsəlman əhalisinə qarşı ermənilərin törətdikləri qanlı cinayətlərini açıb göstərən sənədlərdə qeyd olunur ki, yaxşı silahlanmış, təlim keçmiş 97 erməni əsgərləri çoxlu miqdarda pulemyotların mühafizəsi ilə hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, baş götürüb qaçan valideynlərin atıb getdikləri südəmər körpələrin, demək olar ki, hamısını öldürüb, valideynlərin özlərini isə elə yaxaladıqları yerdə asıb-kəsirdilər. Müsəlmanları qırıb-çatmaqla yanaşı, ermənilər onların əmlaklarını da məhv edir, azçox qiymətli olan şeyləri isə özləri ilə aparırdılar. Sonradan təkcə bir qaladan burun və qulaqları kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadının meyiti tapılmışdır [5,s.213]. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. Seyid Cəfər Pişəvəri "Bakıdakı ilk Sovet hökumətinin müqəddəratı" adlı məqaləsində yazırdı: "Mən daşnakların vəhşiliklərini, saysız–hesabsız günahsız adamların, xüsusilə bitərəf iranlıların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözümlə görmüşdüm. Bu çox faciəli və nifrətləndirici bir hərəkət olmuşdu. Heç bir əsas və ünvan olmadan yalnız kin və ədavət üzündən daşnakların törətdikləri cinayət hər bir insanın ruhunu sıxıb kədərləndirirdi". Beləliklə, üç gün ərzində Bakıda qətl və qarətlərdən sonra Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirdiyi hesabatına görə əksinqilabçı adı altında 12 min nəfər azərbaycanlı əhalisi məhv edilmişdi. Atəşkəs haqqında sazişin bağlanmasına baxmayaraq, erməni və bolşevik hərbi dəstələri qətl və qarətləri aprelin 2-nə kimi davam etdirdilər. Saziş haqqında Bakı Sovetinin yığıncağında məlumat verən bolşevik İ.Suxartsev deyirdi: "Müsavat firqəsi darmadağın edildi və Osmanlının Bakı şöbəsi alındı" [2 s.304].

Bu qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı (onlardan 2560-ı qadın, 1277-si uşaq idi) qətlə yetirilmişdir. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdur. Bu hadisələr zamanı Qubada ermənilərin xüsusi qəddarlıqla törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar üzə çıxmış, öldürülən azərbaycan türklərilə yanaşı, ləzgilərin, talışların, yəhudilərin, tatların və digər müxtəlif millətlərin və dinlərin nümayəndələri olan minlərlə insanların da zorakılığa məruz qaldığı aşkar edilmişdir. 1917-1918-ci illərdə Cənubi Azərbaycanda 100 minlərlə azərbaycanlının qətlə yetirildiyi məlumdur. Təkcə Urmiyada 1918-ci il soyqırımında 130 mindən çox azərbaycanlı erməni-aysor quldurları tərəfindən öldürülmüşdür. Azərbaycanlılara qarşı törədilmiş soyqırımla bağlı təkzibolunmaz faktlar mənbələrdə, o cümlədən erməni və rus müəlliflərinə aid mənbələrdə də geniş əksini tapmışdır. Soyqırımı həyata keçirən bolşevik-daşnak rəhbərlərinin yazışmaları, onların hadisələr haqqında fikirləri bu qətliamların məhz ermənilər tərəfindən törədildiyini bir daha təsdiqləyir. 1918-ci ilin mart-aprel aylarında Bakıda azərbaycanlılara qarşı törədilən soyqırımı o zaman S.Şaumyan özü də etiraf etmişdi. Bu

barədə S.Şaumyanın Sovet Rusiyası hökumətinə verdiyi hesabat həmin hadisənin mahiyyətini aydın ifadə etmək üçün tutarlı bir mənbədir. Həmin hesabatda yazılır ki, Bakı Sovetinin hərbi qüvvələrinə Daşnaksütun partiyasının 4 minlik hərbi hissələri cəlb edilmiş və bu da nəticədə milli qırğına gətirib çıxartmışdı. Bu hesabatda S.Şaumyanın yazdığı digər fikrə diqqət edək: "Biz buna şüurlu surətdə getdik. Əgər onlar qalib gəlsəydilər, Bakı Azərbaycanın paytaxtı olacaqdı". 1918-ci ilin yazında Azərbaycanda milli-dirçəliş prosesi xeyli güclənmişdi. Həmin dövrdə milli demokratik qüvvələrin Azərbaycanın müstəqilliyi, siyasi hakimiyyət uğrunda mübarizəsi bolşevikləri və daşnakları çox narahat edirdi. Ona görə də S.Şaumyan milli qırğın törətməklə Azərbaycan xalqını bu mübarizədən çəkindirmək istəyir, xalqı qorxutmağa, onun azadlığa inamını sarsıtmağa, milli oyanışı beşikdə məhv etməyə çalışırdı. Soyqırımın kütləvi insan tələfatı ilə nəticələndiyi müstəqillik dövründə daha da aydınlandı. Belə ki, 2007-ci ildə Quba şəhərində tikinti məqsədi ilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında bolşevik adı altında quldur erməni dəstələri tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutu olmusdur. Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 30 dekabr 2009- cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar vermişdir. Memorial Kompleks 2012-2013-cü illərdə Quba şəhərində Qudyalçayın sol sahilində, keçmiş stadion ərazisində inşa edilmiş və 2013- cü il sentyabrın 18 də açılmışdır.

Tarixin tədrisində soyqırım məsələsi. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa və inkişafı tarixin, o cümlədən Vətən tarixinin müasir metodoloji yanaşmalar əsasında öyrənilməsi üçün əlverişli zəmin yaratdı. Müstəqilliyin töhfələrindən biri də budur ki, vaxtilə öyrənilməsi mümkün olmayan və ya saxtalaşdırılan, diqqətdən kənarda saxlanılan bir sıra tarixi məsələlər arxiv sənədləri əsasında tədqiq olunur, dərslik və dərs vəsaitlərində əksini tapır, böyüməkdə olan nəsillərə çatdırılır. Təcrübə göstərir ki, Azərbaycan tarixinin hər bir mövzusu, o cümlədən azərbaycanlıların deportasiyası və soyqırımı tarixi ilə bağlı mövzuların mənbələr əsasında sistemli öyrənilməsi təhsilalanların vətəndaşlıq, vətənpərvərlik hisslərinin, milli şüurunun formalaşmasına ciddi təsir göstərir. Azərbaycanlıların soyqırımından bəhs edərkən ilk növbədə həmin dövrə aid tarixi şəraiti diqqətə çatdırmalı, regionda Azərbaycan uğrunda böyük dövlətlərin, xüsusilə Rusiyanın maraqlarını göstərməli, bu dövlətin ermənilərin çirkin niyyətlərini dəstəkləməsi, ermənilərdən alət kimi istifadə olunması səbəblərini izah etməlidir.

Xalqımıza qarşı erməni şovinist millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi, əsasən XVIII əsrdən başlayır. Belə ki, Rusiya çarı I Pyotrun hakimiyyəti dövründə Rusiyanın Qafqaz xalqlarına qarşı təcavüzkar siyasəti rəsmi dövlət səviyyəsinə qalxmışdı. Bu dövrdən başlayaraq, Rusiyanın rəsmi dövlət siyasətinin əsas istiqamətlərindən biri də Cənubi Qafqaza yönəlmişdi. Bununla bağlı I Pyotrun vəsiyyətnaməsini və dövlət fərmanını, eləcə də I Pyotrdan sonra hakimiyyətə gələn Rus hökmdarlarının dövlət siyasətini göstərmək olar [1 s.5]. Tarix dərslərində, o cümlədən Azərbaycan tarixinin tədrisində soydaşlarımızın soyqırımından bəhs edərkən təhsilalanların diqqətini bu faktlara yönəltmək, S.Şaumyanın, Lalayanın, Hamazaspın, Andranikin və digər erməni quldurlarının törətdikləri vəhşilikləri izah etmək olduqca vacibdir.

Müstəqil Azərbaycan dövlətinin bərpası və inkişafında misilsiz xidmətləri olan, ulu öndərimiz Heydər Əliyev azərbaycanlıların doğma yurdlarından deportasiyası və soyqırımına aid məsələlərin hərtərəfli öyrənilməsi ilə bağlı xüsusi fərman və sərəncam imzalamışdır. 26 mart 1998-ci ildə imzalanmış "Azərbaycanlıların soyqırımı haqqında" Fərman əsasında hər il 31 mart azərbaycanlıların soyqırımı günü kimi ümumxalq, dövlət səviyyəsində qeyd olunur [3]. Heydər Əliyev Azərbaycanın XIX-XX əsrlər tarixinə yeni baxışını 1993-cü ildə Elmlər Akademiyasında ziyalıları ilə görüşündə açıqlamışdı. Lakin Heydər Əliyevin irsinə həsr olunmuş bəzi əsərlərdə düzgün olmayaraq, bunu akademiyada 1997-ci ildə keçirilmiş görüşlə bağlayırlar. Məsələn, tarixçi-alim Qurban Bayramovun "Heydər Əliyev və Azərbaycan tarix elmi" kitbında deyilir: "Azərbaycan Prezidenti Heydər Əliyev tarix elminin inkişafına xüsusi diqqət verərək 1997-ci il yanvarın 31-də respublika Elmlər Akademiyası işçiləri ilə görüşündə XIX-XX əsrlər Azərbaycan tarixinin yenidən yazılması zərurətini irəli sürdü və bu işə böyük qayğı göstərəcəyini bildirdi."Dövlətimizin XIX-XX əsr tarixinə, eləcə də soyqı-

rım məsələsinə həssas yanaşması hər bir Azərbaycan vətəndaşını qürurlandırır, gənclərimizdə milli ruhu, əqidəni gücləndirir. Ümumtəhsil məktəblərində tarixin tədrisində şagirdlərə tarixi həqiqətlərin daha dolğun, məqsədyönlü çatdırılması vacibdir. Bundan ötrü təbii ki, müəllimlərin yeni təhsil proqramları ilə ardıcıl, sistemli işləmələri, yeni texnologiyalardan səmərəli istifadə etmələri vacibdir.

Ulu Öndər Heydər Əliyev və ölkə prezidenti cənab İlham Əliyevin öyrənilməsini qətiyyətlə istədiyi vətən tariximizin necə tədris edilməsinə qısaca nəzər yetirək. Məsələn, BDU-nun Tarix fakültəsində Təhsil Nazirliyinin qərarına əsasən "Azərbaycan tarixi" fənninin tədris müddətinin Tarixçi, Tarix müəllimi ixtisasında təhsil alanlar üçün 6 semestrdən 4 semestrə, Amerikaşünaslıq, Regionşünaslıq kimi ixtisaslarda yarım semestrə, qeyri-ixtisas (hətta, filologiya, sosiologiya kimi fakultələrdə) fakultələrində 2 semestrdən 1 semestrə endirilmiş, bir-neçə il əvvəl orta məktəblərdə "Azərbaycan tarixi"nin dünya tarixinin tərkibində keçilməsi ilə bağlı fikirlər irəli sürülmüşdür. Təhsil Nazirliyinin yeni qərarına əsasən, "Azərbaycan tarixi" fənninin tədrisində yenidən hərtərəfli dəyişiklik edilmiş, əvvəlcə fənnin adı dəyişdirilərək "Azərbaycanın müasir dövlətçilik tarixi" qoyulmuş, dərsin məzmununa isə "Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, mərhələləri, formalaşması və inkişafını öyrəndiyi" təyinatı verilmişdir. Son variantda fənnin adını qaytarsalar da məzmun yuxarıdakı kimi saxlanılmış və kredit tryuku ilə ona ayrılan 75 saat 60 saata endirilmişdir.

Azərbaycan Respublikası Ümumtəhsil müəssisələrində V sinifdən tədris edilməyə başlanılan, V-IX siniflərdə ardıcıl və sistemli, X-XI siniflərdə ümumi təkrar əsasında tədris edilən "Azərbaycan tarixi" fənnində 31 mart Azərbaycanlıların soyqırımı üçün ayrılan dərs saatları–V sinif üçün ümumi 68 saat- 1 saat, IX sinif üçün ümumi 68 saat- 2 saat və XI sinif üçün ümumi 68 saat-2 saatdır.

2012-ci ildə nəşr edilən, müəllifləri Yaqub Mahmudlu, Hafiz Cabbarov, Leyla Hüseynova olan V siniflər üçün "Azərbaycan tarixi" dərsliyinin 38-ci paraqrafı 1918-ci il Mart soyqırımına həsr edilmişdir. Burada türk-müsəlman əhalinin başına gətirilən müsibətlər bir növ ümumi, nağılvari formada, şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmaqla təsvir edilmişdir. Lakin bununla belə, soyqırımın başlaması üçün bəhanə, həmçinin baş verən fəlakət və itkilər, soyqırımın baş verdiyi bölgələr, həmçinin "Quba Soyqırımı memorial kompleksinin" foto şəkli təsvir edilmiş, Ulu Öndər Heydər Əliyevin 31 mart Azərbaycanlıların Soyqırımı günü kimi qeyd edilməsi haqqında 1998-ci il 26 mart tarixli fərmanı da öz əksini tapmışdır [6, s.138-141].

2014-cü ildə nəşr edilən, müəllifləri Qasım Hacıyev və Əyyub Əbdüləzimov olan 8-ci siniflər üçün "Qarabağ tarixi" dərsliyində 1918-ci il mart hadisələri səthi şəkildə sadəcə 1-2 cümləylə öz əksini tapmışdır. Bu isə soyqırım məsələsinin tarix dərsliklərində hələ də lazımi səviyyədə işıqlandırılmamasından irəli gəlir.

2016-cı ildə nəşr edilən, müəllifləri Yaqub Mahmudlu, Qabil Əliyev, Leyla Hüseynova, Mehman Abdullayev, Hafiz Cabbarov olan IX siniflər üçün "Azərbaycan tarixi" dərsliyində yetəri qədər tutarlı faktlarla 1918-ci il mart soyqırımı haqqında məlumat yer almışdır. Belə ki, Bakı Soveti rəhbərliyinin müsəlman-türk əhalisinə qarşı soyqırımı törətməkdə məqsədləri aşağıdakı kimi ifadə edilmişdir: 1. Sovet Rusiyasıının Bakını işğal etmək, neft sərvətlərinə yiyələnmək planını həyata keçirmək; 2. Bolşeviklərin əsas rəqibi olan Müsavat partiyasının sosial bazasını məhv etmək; 3. Türk-müsəlman əhalini qırmaq, Bakını rus-erməni şəhərinə çevirmək; 4. Milli siyasi qüvvələrə divan tutmaq, xalqımızın azadlıq mübarizsini başsız qoymaq. Dərslikdə mart soyqırımının baş vermə səbəbləri, Bakı Sovetinin hərbi qüvvəsi haqqında məlumat, üç gün davam edən qırğın nəticəsində ayrı-ayrı bölgələr üzrə insan tələfatı, məhv edilən memarlıq abidələri habelə dəymiş ümumi ziyan haqqında yetəri qədər məlumat öz əksini tapmışdır. Həmçinin bu dəhşətli soyqırımı hadisəsini araşdırmaq üçün 1918-ci ilin iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılan Xüsusi Təhqiqat Komissiyası və onun həyata keçirdiyi tədbirlər faktlarla əsaslandırılmışdı [7, s.89-92]. Mövzunun içərisində həmçinin mart soyqırımından sonra yaradılan Bakı Xalq Komissarları Sovetinin (XKS-25 aprel) antiazərbaycan siyasəti haqqında da məlumat öz əksini tapmışdır.

2018-ci ildə nəşr edilən, müəllifləri Pərviz Ağalarov, Niyaməddin Quliyev, Rövşən Hətəmov, Faiq Babayev, Elşən Qasımov, Elnur Hüseynov, Hafiz Cabbarov, Sevil Bəhrəmova və Asif Hüseynov olan XI siniflər üçün "Azərbaycan tarixi"dərsliyində mart hadisələri "Bakı Sovetinin azərbaycanlılara qarşı soyqırımı siyasəti" adlı mövzuda geniş şəkildə qələmə alınmışdır. Burada XX əsrin əvvəllərində baş qaldırmış milli azadlıq hərəkatı və onun üzvləri, 1918-ci il mart soyqırımına zəmin

yaradan hadisələr, soyqırım zamanı və sonra əhalinin bolşevik-daşnak dəstələrinə müqaviməti (bu özünü qoçulardan ibarət dəstələr şəklində büruzə verirdi və bunun nəticəsi idi ki, ermənilər Bakıda geniş miqyaslı soyqırımı törətsələr də, bir sıra ətraf kəndlərə girə bilməmişdilər), soyqırım zamanı türk-müsəlman əhalinin başına gətirilən müsibətlər, bölgələr üzrə insan və ümumi dəymiş ziyan haqqında məlumatlar tarixi materiallar əsasında öz əksini tapmışdır. Dərslikdə həmçinin "Quba soyqırımı" memorial kompleksi haqqında da məlumatlara yer verilmişdir. Mövzu Məhəmməd Əmin Rəsulzadənin 31 mart 1919-cu ildə "Azərbaycan" qəzetində nəşr edilən "Martda tökülən qanlar türklərdə milliyyət və hürriyyət fikrini, Azərbaycan atəşi-müqəddəsini söndürə bilmədi… Qanlar içində boğdurulmaq istəyən Azərbaycan fikri bir kərə müstəqil bir hökümət şəkli ilə təcəlli etdi! Bakı bir qan və bir fitnə ocağı deyil, paytaxtımız oldu" fikri ilə yekunlaşır [8, s.78-82]. Bundan əlavə azərbaycanlıların digər faciə və soyqırımları, Qərbi Azərbaycandan deportasiya edilməsi və s. kimi taleyüklü məsələlərə müəyyən qədər diqqət yetirilir.

2021-ci ildə çapdan çıxan, müəllifləri Pərviz Ağalarov, Niyaməddin Quliyev, Hafiz Cabbarov, Talıb Talıblı və Ramil Tanrıverdi olan IX siniflər üçün "Zəfər tarixi" kursu üzrə dərs vəsaitində tarixi keçmişlə qarşılıqlı əlaqə formasında İkinci Qarabağ müharibəsindəki tarixi qəqləbəmiz işıqlandırılmışdır. Dərs vəsaitində qısa da olsa Mart Soyqırımı, AXC dövründə həyata keçirilən tədbirlər haqqında, həmçinin soyqırım nəticəsində həlak olanların türk-müsəlman əhalisinin milli istiqlal uğrunda fəda etdikləri və məhz həmin dövrdə edilənlərin İkinci Qarabağ müharibəsindəki qalibiyyətli zəfər yolumuzu işıqlandırdığı vurğulanmışdır.

Nəticə. Xalqın, millətin var olduğunu göstərən əlamətlər sırasında onun tarixi və milli şüuru xüsusi rol oynayır. Azərbaycan xalqı öz milli tarixini öyrənir, milli tarixinə hörmətlə yanaşır, onu tədqiq və tədris edir. Milli şüur da xalqda təşəkkül tapır. Belə olmasaydı, İkinci Qarabağ müharibəsində qalib gələ bilməzdik. İkinci Qarabağ müharibəsindəki tarixi qələbədən sonra işğaldan azad edilən ərazilərdə aparılan abadlıq və yenidən qurma işləri nəticəsində təsadüfən aşkara çıxarılan kütləvi məzarlıqlar bir daha sübut edir ki, erməni xisləti illər keçsə də, dəyişmir. Qarabağ ərazisində aşkar edilən qazıntılar tarixi fakt kimi araşdırılsa da, onların tarixin tədrisinə gətirilməsi, tarixin tədrisində soyqırım kimi verilməsi tarix dərsliklərinin üzərinə bir vəzifə kimi düşür. Tarixçilərdən C.Zeynaloğlunun, H.Baykaranın, Mirzə Bala Məmmədzadənin, habelə AXC hökümətinin Parisdə çap etdirdiyi əsərlərində "mart hadisələrinin sinfi xarakter daşıması" iddiası rədd edilərək "milli ədavətdən, ermənilərin azərbaycan türklərinə olan nifrətindən doğan qırğın" ideyası dönə-dönə vurğulanır. Başlıcası isə həmin müəlliflər axıdılan günahsız qanlara ürəkdən sızlasalar da, daxili bir qürur, milli iftixar hissi ilə mart şəhidlərini istiqlalımız, müstəqil dövlətçilik yolunda ilk qurbanlar hesab edirlər [4, s.249]. Lakin xarici tarixşünaslıqda bu düşüncə fərqlidir. Xarici tarixşünaslıqda mart soqırımında əhalinin acınacaqlı vəziyyəti müfəssəl təsvir edilsə də, bu hadisələri sadəcə bəsit bir hadisə kimi dəyərləndirmiş, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti demək olar ki, heçə endirilmişdir. Ölkə prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi: "Xalqımızın vətənpərvərliyi, birliyi və həmrəyliyi, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində qarşımıza qoyduğumuz bütün məqsədlərə, o cümlədən ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, soyqırımı həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağıq". 2021-ci ildə çapdan çıxan IX siniflər üçün "Zəfər tarixi" kursu üzrə dərs vəsaitində tarixi keçmişlə qarşılıqlı əlaqə formasında İkinci Qarabağ müharibəsindəki tarixi qələbəmiz işıqlandırılmış, Mart Soyqırımı haqqında məlumat verilmişdir. Bu tarixi hadisələrin tədrisi yetişən gənc nəsilin qan yaddaşına hoparaq, onlara öz milli tarixini öyrənmək, sevdiyi Vətən, torpaq uğrunda lazım gələrsə, ölmək mənəviyyatını öyrədir. Gənclərimizdə milli mənlik şüurunu daha da inkişaf etdirərək, 44 günlük Vətən müharibəsində olduğu kimi qəhrəmanlıqlar göstərməyə sövq edir.

ƏDƏBİYYAT

1. Abışov V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, "Nurlan", 2007, 163 s.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 s.
3. Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli fərmanı. "Azərbaycan" qəzeti, 27 mart 1998.

4. İsgəndərov A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı 1918-1920, Bakı, "Adiloğlu" nəşriyyatı, 2006, 396 s.
5. Paşayev A. Açılmamış səhifələrin izi ilə, Bakı, "Azərnəşr", 2001.
6. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı, "Təhsil", 2012, 208 s.
7. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı, "Şərq-Qərb", 2016, 192 s.
8. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı, "Şərq-Qərb", 2018, 208 s.

МАТАНАТ МАМЕДОВА
Доцент Бакинского государственного университета

ПРОБЛЕМА ГЕНОЦИДА В ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Депортация наших соотечественников с земель их предков на территории Республики Армения, массовое нарушение их прав человека неоспоримы как исторический факт. Ненавистная геноцидальная политика агрессивного армянского шовинизма против азербайджанцев в той или иной степени включена в наши учебники истории. В 1991 году восстановление и развитие государственной независимости Азербайджана, изучение истории Родины на основе современных методических подходов в наших средних школах создали благоприятную почву для обучения подрастающего поколения. Общенациональный лидер Гейдар Алиев подписал специальный указ от 26 марта 1998 года «О Геноциде азербайджанцев». Вопрос геноцида в той или иной степени нашел отражение в учебнике «История Азербайджана» для 5-го класса, изданном в 2012 году, и в учебнике «История Карабаха» для 8-го класса, изданном в 2014 году. В изданном в 2016 году учебнике «История Азербайджана» для 9-х классов содержались сведения о мартовском геноциде 1918 года с достаточно убедительными фактами, а мартовские события в изданном в 2018 году учебнике «История Азербайджана» для 11-х классов широко писалась «политика геноцида». В учебнике курса «История Победы» для IX классов, который выйдет в свет в 2021 году, наша историческая победа во Второй Карабахской войне была освещена в форме взаимодействия с историческим прошлым, а также даны сведения о Мартовском Геноциде. Учение об этих исторических событиях впитывается в кровную память молодого поколения, учит их нравственности познавать свою национальную историю, погибая при необходимости ради любимой Родины и земли. Это еще больше развивает национальное самосознание нашей молодежи и мотивирует ее проявлять героизм, как в 44-дневной Отечественной войне.

Ключевые слова: геноцид, шовинизм, трагедия, национальный конфликт, преподавание истории.

MATANAT MAMMADOVA
Associate professor of Baku State University

THE ISSUE OF GENOCIDE IN THE TEACHING OF AZERBAIJAN HISTORY

Deportation of our compatriots from their ancestral lands in the territory of the Republic of Armenia, massive violation of their human rights is undeniable as a historical fact. The hateful genocidal policy of the aggressive Armenian chauvinism against the Azerbaijanis is included in our history textbooks to one degree or another. In 1991, the restoration and development of the state independence of Azerbaijan, the study of the history of the Motherland based on modern methodological

approaches in our secondary schools created a favorable ground for the younger generations to learn. National leader Heydar Aliyev signed a special decree dated March 26, 1998 "On the Genocide of Azerbaijanis". The issue of genocide was reflected to one degree or another in the "History of Azerbaijan" textbook for the 5th grade published in 2012, and in the "History of Karabakh" textbook for the 8th grade published in 2014. The "History of Azerbaijan" textbook for the 9th grades published in 2016 contained information about the March genocide of 1918 with sufficiently convincing facts, and the "History of Azerbaijan" textbook for the 11th grades published in 2018 extensively wrote about the events of March received. In the textbook for the "History of Victory" course for IX classes, which will be published in 2021, our historical victory in the Second Karabakh War was highlighted in the form of interaction with the historical past, and information was provided about the March Genocide. The teaching of these historical events is absorbed into the blood memory of the young generation, it teaches them the morality of learning their national history, dying if necessary, for the sake of their beloved Motherland and land. It further develops national self-awareness in our youth and motivates them to show heroism like in the 44-day Patriotic War.

Keywords: genocide, chauvinism, tragedy, national conflict, history teaching.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 oktyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.

Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
TarixVeOnunProblemleri@gmail.com

Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

Электронный адрес журнала "История и ее проблемы":
TarixVeOnunProblemleri@gmail.com

Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

Email: **TarixVeOnunProblemleri@gmail.com**

Çapa hazırlayanlar: ***Sevinc Ruintən*** – Bakı Dövlət Universiteti
Şəbnəm Cəfərova – Bakı Dövlət Universiteti
Elmar Axundov – Bakı Dövlət Universiteti
İlham Məmmədov – Bakı Dövlət Universiteti
Şəhla Xələfova – Bakı Dövlət Universiteti
Tərcüməçi radaktorlar: ***Anar Kərimov*** – Bakı Dövlət Universiteti
Aynur Məmmədova – Bakı Dövlət Universiteti
Web-redaktor: ***Ramil Dadaşov*** – Azərbaycan Texniki Universiteti

Yığılmağa verilmişdir: 15.11.2024. Çapa imzalanmışdır: 18.11.2024.
Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56
E-mail: TarixVeOnunProblemleri@gmail.com